RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 187 (8780) ŞƏNBƏ, 4 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Sumqayıtda pandemiya dövrünə baxmayaraq, çox böyük işlər görülür

## Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Sumqayıt şəhərində səfərdə olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı əvvəlcə Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.



## Cənubi Qafqazın ən böyük sənaye parkında 5500-dək insan daimi işlə təmin edilib

### Sumqayıt Kimya Sənaye Parkında "Azmonbat" MMC-nin açılışı olub

Sentyabrın 3-də Sumqayıt Kimya Sənaye Parkında "Azmonbat" Məhdud Məsuliyyətli Cəmiyyətinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizdə yaradılan sənaye parkları barədə dövlət başçısına məlumat verdi.

Bildirildi ki, ölkəmizdə sənaye parklarının yaradılması istehsalın genişləndirilməsi, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının yaradılması baxımından çox əhəmiyyətlidir. Hazırda Azərbaycanda 5 sənaye parkı fəaliyyət göstərir. Dövlət başçısının bu ilin mayında imzaladığı fərmanla yaradılan Ağdam Sənaye Parkı isə sayca 6-cıdır. Cənubi Qafqazın ən böyük, Azərbaycanın isə ilk sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkında 5500-dək insan daimi işlə təmin edilib. Parkda 24 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və onlardan 17-si istehsala başlayıb. Növbəti mərhələdə daha 7 rezidentin fəaliyyətə başlaması nəzərdə tutulur.

Sənaye parkında məhsul istehsalı və ixrac istiqamətində müsbət dinamika davam edir. Belə ki, 2021-ci ilin birinci yarısında ötən ilin müvafiq dövrü ilə müqayisədə 49 faiz daha çox məhsul istehsal edilib və 47 faiz daha çox ixrac həyata keçirilib.

Qeyd edək ki, Azərbaycanda sənayeləşmə prosesinin ardıcıl davam etdirilməsi, həmçinin qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin əsas istiqamətlərindəndir. Dünyada pandemiya və iqtisadi-maliyyə problemlərinə baxmayaraq, ölkəmizdə bu istiqamətdə çox böyük işlər görülür. İqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına xüsusi önəm verilir, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi üçün sistemli tədbirlər həyata keçirilir.

Ardı 2-ci səh.



## Azərbaycanın yəhudi icmasına

Hörmətli həmvətənlər!

Yəhudi xalqının yeni il bayramı - Roş ha-Şana münasibətilə sizi ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Mədəniyyətlərarası və dinlərarası harmoniyanın hökm sürdüyü Azərbaycanda ayrı-ayrı xalqların və dinlərin nümayəndələri əsrlərdən bəri sülh və əmin-amanlıq şəraitində, qarşılıqlı hörmət və etimad mühitində yaşayırlar. Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunması, milli azlıqların dil və mədəniyyətinin inkişafı dövlətin daimi himayəsi altındadır. Bu siyasət milli-tarixi ənənəyə və beynəlxalq hüquqi prinsiplərə sadiq Azərbaycan üçün prioritet istiqamətlərdəndir.

Dünyada nümunəvi tolerantlıq məkanı kimi tanınan Azərbaycanda yəhudi icmasının özünəməxsus yeri vardır. Yüz illərdir ölkəmizdə məskunlaşan yəhudilər burada heç vaxt antisemitizmə və ayrı-seçkiliyə məruz qalmamış, öz dilini, mədəniyyətini, dini inanc və adət-ənənələrini günümüzədək qoruyub saxlamışlar.

Məmnunluq hissi ilə qeyd edirəm ki, Qarabağın işğaldan azad olunmasında yəhudi əsilli vətəndaşlarımız respublikamızda yaşayan bütün xalqların nümayəndələri ilə birgə əsl qəhrəmanlıq nümunələri nümayiş etdirmişlər. Yəhudi icması bu gün də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində uğurla fəaliyyət göstərir.

Yeniliyin, mənəvi saflığın, həmrəylik və xeyirxahlığın rəmzi olan Roş ha-Şana ilə əlaqədar bir daha hər birinizə bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 sentyabr 2021-ci il*

## Prezident İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl medalı qazandıran idmançımızı təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl medalı qazandıran idmançımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı bununla bağlı "Twitter"dəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Tokio-2020" Yay Paralimpiya Oyunlarında 3-cü qızıl medalını qazanan Raman Salehi bir daha səmimi-qəlbdən təbrik edirəm!"

## Birinci vitse-prezident Mehriban Əliyeva Yay Paralimpiya Oyunlarında Azərbaycan milli yığmasına 12-ci qızıl medalı qazandıran idmançımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında Azərbaycan milli yığmasına 12-ci qızıl medalı qazandıran idmançımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin "Instagram" hesabında bununla bağlı etdiyi paylaşımda deyilir:

"Tokio-2020" Yay Paralimpiya Oyunlarında Azərbaycanın qızıl medallarının sayı 12-yə çatdı! Paralimpiyaçımız Raman Salehi 3-cü medalını qazanması münasibətilə təbrik edirəm! Azərbaycanı Paralimpiadada layiqincə təmsil edən milli yığmamıza səmimi-qəlbdən təşəkkür edir, bütün idmançılarımıza yeni-yeni nailiyyətlər və qələbələr arzulayıram!"

## Qarabağın hava qapısı

### Azərbaycan təyyarələri xaricə Qarabağdan da uça biləcəklər

30 ilə yaxın erməni işğalı altında qalan torpaqlarımızı hərbi qüdrətimiz sayəsində cəmi 44 gün ərzində düşmən tapdağından təmizləyən Azərbaycan Prezidenti İlham Əliyev azad edilmiş ərazilərimizə qayıdış üçün mühüm layihələrin icrasına da qısa zamanda nail olmağı bacarır. Artıq bu torpaqlarımızda ən yeni texnologiyalar əsasında sürətlə bərpa və quruculuq işləri aparılır.

Böyük qayıdışın çox yaxın zamanlarda baş tutacağını göstərən növbəti layihə isə Füzuli Beynəlxalq Hava Limanının çox qısa zaman ərzində istifadəyə verilməsi olacaq. Hava limanının uçuş-enmə zolağında artıq ilk sınaq uçuşları həyata keçirilib, yaxın aylarda isə onun tam açılışa hazır olacağı gözlənilir. Bunu Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə növbəti səfəri zamanı deyib: "Cəmi bir neçə ay ərzində hava limanı demək olar ki, artıq açılışa hazırlaşır. Hava limanının inşası bu il başlamışdır. Mən demişdim ki, bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. Bəlkə də dünyada bu sürətli templərlə heç bir hava limanı tikilməmişdir. Artıq uçuş-enmə zolağı da hazırdır. Burada son tamamlama işləri aparılır. Bir daha qeyd etmək istəyirəm, bu il mən hava limanının təməlini qoydum, indi isə gəlirik inşaat işləri ilə tanış olmağa. Bu aeroport Qarabağın hava qapısıdır".

Aeroportun məqsədinin nədən ibarət olduğunu Prezident İlham Əliyev hələ yanvar ayında hava limanının təməlqoyma mərasimində çıxış edərkən açıqlamışdı: "Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər".

Ardı 5-ci səh.



## XVI Tokio Yay Paralimpiya Oyunları

## Üzgüçümüzün 3-cü, komandamızın 12-ci qızıl medalı

### Azərbaycan paralimpiyaçıları Tokioda idman tariximizə yeni səhifələr yazmaqda davam edirlər

Dünən isə Raman Saleh üzgüçülük yarışlarında özünün üçüncü mükafatını əldə etmişdir. Təmsilçimiz 100 metr məsafəni batterflyay üsulu ilə 57,81 saniyəyə üzərək birinci olmuşdur. Xatırladaq ki, bunadək R.Saleh brass və sərbəst üsulla 100 metr məsafəni üzməkdə iki dəfə paralimpiya çempionu adını qazanmışdır.

Bax: səh. 8



## Ölkəmizdə koronavirus əleyhinə vurulan peyvəndlərin ümumi sayı 7 milyonu ötüb

Azərbaycanda koronavirus infeksiyasından müalicə olunaraq sağalanların sayı yoluxanların sayını üstələyir. Amma sevinmək hələ tezdir. Çünki bu təhlükəli virusa yoluxma faktı yenə də yüksəkdir.

Həmçinin Nazirlər Kabineti yanında Operativ Qərargahın yaydığı məlumatlara əsaslanaraq deyə bilərik ki, hər gün COVID-19 səbəbindən dünyasını dəyişənlərin sayında azalma müşahidə olunmur.

Ardı 7-ci səh.

## Ermənilərin Qarabağda növbəti fiaskosu

### Yaxud "dəlidən doğru..." qərar

Erməni xalqının tarixi təqvimində növbəti qara gün sentyabrın 2-də yarandı. Artıq bunu ermənilərin özləri də danmır. Erməni siyasi şərhçi Tevos Arşakyan deyir ki, hələ keçən il həmin gün ermənilər bir-birini təbrik edirdi: "Amma bu gün təqvimin qırmızı günü qaraya çevrilib. Xalqımızın yaddaşında belə kədərli tarixlər çoxdur, lakin məhz 2 sentyabr 2021-ci il tarixdə "dqr"in - "artsaxın" son günü kimi qalacaqdır".

T.Arşakyan daha sonra bildirir ki, "dqr"in elan olunmasının 30-cu "ildönümü"ndə Ermənistanın ali vəzifəli şəxslərinin heç biri "artsax"a gəlmədi. Nə prezident, nə baş nazir, nə sonuncunu əvəz edən Papikyan, nə də XİN başçısı Mirzoyan. Niyə gəlmədilər? Cavab aydındır, söhbət qorxudan gedir.

Ardı 8-ci səh.

# Sumqayıtda pandemiya dövrünə baxmayaraq, çox böyük işlər görülür

## Cənubi Qafqazın ən böyük sənaye parkında 5500-dək insan daimi işlə təmin edilib

*Əvvəli 1-ci səh.*

Sənayeləşmə siyasətinə uyğun olaraq, ölkəmizdə daxili tələbatın ödənilməsində yerli məhsulların payını əhəmiyyətli dərəcədə artıran və ixrac imkanlarımızı genişləndirən yüzlərlə müasir sənaye müəssisəsi, yeni istehsal sahələri yaradılır. Sumqayıt Kimya Sənaye Parkında yaradılan "Azmonbat" Məhdud Məsuliyyətli Cəmiyyəti də bu müəssisələrdən biridir. Müəssisə parkda fəaliyyətə başlayan 17-ci rezidentdir. "Azmonbat"da istifadə müddəti bitmiş qurğuşun turşulu akkumulyator batareyalarının utilizasiyası aparılacaq, nəticədə propilen və yüksək sıxlıqlı polietilen, qurğuşun külçə, qurğuşunlu aktiv kütlə və ammonium sulfat məhlulu əldə olunacaq. Müəssisədə bir sıra ölkələrin qabaqcıl texnologiyalarından istifadə edilir. 100 nəfərin daimi işlə təmin olunduğu müəssisədə istehsal edilən məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, Türkiyə, Bolqarıstan və MDB ölkələrinə ixrac ediləcək.





Prezident İlham Əliyev müəssisəni işə saldı.

Məlumat verildi ki, müəssisə ildə 30 min ton akkumulyator utilizasiya etmək gücünə malikdir. Bu, orta hesabla 800 min ədəd akkumulyator deməkdir ki, ondan da 15 min ton qurğuşun və 4,5 min ton gübrə almaq mümkündür. İstehsal prosesi ətraf mühitə zərər vurmadan ekoloji standartlara tam cavab verir. İstifadə müddəti bitmiş qurğuşun turşulu akkumulyator batareyalarının utilizasiyasının təşkili həm də xüsusi əhəmiyyətli ekoloji layihədir. "Azmonbat" MMC sənaye parkında tətbiq edilən vergi və gömrük güzəştlərindən yararlanaraq indiyədək xərclərinə 1 milyon manat məbləğində qənaət edib.

# "Bir qapı" prinsipi ilə fəaliyyət göstərəcək məhkəmə kompleksi

Sentyabrın 3-də Sumqayıt Məhkəmə Kompleksinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.







Ədliyyə naziri Fikrət Məmmədov kompleksdə yaradılan şərait barədə dövlət başçısına məlumat verdi.

Qeyd edək ki, ölkəmizdə digər sahələrdə olduğu kimi, məhkəmə sistemində də islahatlar uğurla davam etdirilir. Prezident İlham Əliyevin 2019-cu ildə imzaladığı fərman bu sahədə mühüm "yol xəritəsi" olmaqla onun icrası ilə bağlı kompleks qanunvericilik və praktiki tədbirlər görülür. Yeni regional inzibati və kommersiya məhkəmələri təsis edilib, vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün işlək mexanizmlər yaradılıb, məhkəmələrin və hakimlərin təminatı gücləndirilib. Bu sahədə infrastrukturun müasirləşdirilməsi üzrə görülən tədbirlər çərçivəsində yeni məhkəmə bina və komplekslərinin inşası, onların ən müasir İKT qurğuları ilə təchizi xüsusi yer tutur. Sumqayıt Məhkəmə Kompleksinin inşası da bu istiqamətində icra olunan layihələrdən biridir. Bu, respublikamızda inşa olunan sayca dördüncü məhkəmə kompleksidir.

Kompleks Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində inşa olunub. Konseptual baxımdan yeni olan, öz funksionallığı ilə fərqlənən müasir Məhkəmə Kompleksi altı məhkəməni, o cümlədən Sumqayıt apellyasiya, inzibati, kommersiya və ağır cinayətlər, Sumqayıt şəhər, eləcə də müvəqqəti olaraq Qubadlı rayon məhkəmələrini əhatə edir. "Bir qapı" prinsipi ilə fəaliyyət göstərəcək məhkəmə kompleksi ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə, vətəndaşların müraciət imkanlarının asanlaşdırılmasına xidmət edəcək.

Məhkəmə zallarında proseslərə "Elektron məhkəmə" informasiya sistemi və digər müasir İKT-lərin tətbiqi ilə daha keyfiyyətli baxılması və şəffaflığın təmin edilməsi üçün "Femida" sistemi quraşdırılıb. Burada 50-dək hakim, ümumilikdə isə 240 işçi fəaliyyət göstərəcək. Sumqayıt Məhkəmə Kompleksində yaradılmış müasir şərait təxminən 1 milyon 460 min əhaliyə yüksək səviyyədə məhkəmə xidmətləri göstərməyə imkan verəcək.

Prezident İlham Əliyevə ədliyyə və məhkəmə sahəsində tətbiq olunan növbəti rəqəmsal innovasiyalar barədə də məlumat verildi, bununla bağlı videoçarx nümayiş etdirildi.

Bildirildi ki, dövlət başçısının sosial ədalətə əsaslanan islahatlarına, eləcə də birinci xanım Mehriban Əliyevanın inklüziv cəmiyyətin inkişafı üzrə təşəbbüslərinə uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən innovasiyaların tətbiqinin genişləndirilməsi üzrə ardıcıl tədbirlər görülür. Bütün bu işlər vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılmasına, onlara yüksəkkeyfiyyətli hüquqi xidmətlərin göstərilməsinə, şəffaflığın artırılmasına, bütövlükdə məhkəmə hakimiyyətinə ictimai etimadın yüksəldilməsinə yönəlib.





# Azərbaycanda təhsilin inkişafına yüksək səviyyədə dövlət qayğısı var

Sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən yeni inşa olunan 1100 şagird yerlik Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə də tanış olub.






AZƏRTAC xəbər verir ki, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov məktəbdə yaradılan şərait barədə dövlət başçısına məlumat verdi.

Bildirildi ki, təhsil müəssisəsində 42 sinif otağı, fənn kabinələri, laboratoriyalar, əmək və hərbi təlim otaqları, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.

Qeyd edək ki, son illərdə dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə təhsil sahəsində aparılan islahatların uğurlu nəticələrindən biri də bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsidir. Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə də yaradılan şərait Azərbaycanda təhsil sahəsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının əyani göstəricisidir. Paytaxtla yanaşı, digər şəhərlər də yeni məktəb binalarının inşası, mövcud təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması ölkəmizdə təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində aparılan işlərin tərkib hissəsidir. Bütün bu işlər həm də Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısının olduğunu göstərir. Bu da təsadüfi deyil. Çünki Azərbaycan dövlətinin yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsi, gənc nəslin bilikli və savadlı, yüksək intellektual potensiala malik yetişdirilməsidir.







# Sumqayıtda pandemiya dövrünə baxmayaraq, çox böyük işlər görülür

## Növbəti güzəştli yaşayış kompleksinin təməli qoyuldu





Sentyabrın 3-də Sumqayıt şəhərində güzəştli mənzil layihəsi çərçivəsində növbəti yaşayış kompleksinin təməli qoyulub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib.



Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlət başçısına yeni layihə barədə məlumat verdi.

Bildirildi ki, Sumqayıt şəhərində növbəti güzəştli mənzil layihəsi 2 hektar ərazini əhatə edir. Burada doqquz, on iki və on altı mərtəbəli 11 bina inşa olunacaq. Mənzillərin ümumi sayı isə 466-dır. Onlar studio tipli, 2, 3 və 4 otaqlı olacaq. Ərazidə həmçinin 90 yerlik uşaq bağçası da inşa ediləcək.

Diqqətə çatdırıldı ki, Mənzil İnşaatı Dövlət Agentliyinin regionda inşa olunmuş ilk layihəsi də Sumqayıt şəhərindədir. Vətəndaşlara güzəştli şərtlərlə təklif edilən bütün mənzillər tam təmirli olacaq. Mənzillər həmçinin mətbəx mebeli, kombi isitmə sistemi, su, qaz və elektrik sayğacı ilə təmin ediləcək. Mənzillərin satışı həm güzəştli ipoteka kreditindən istifadə etməklə, həm də öz vəsaiti hesabına ödəniş üsulu ilə aparılacaq.

Dövlət başçısı yeni yaşayış kompleksinin təməlini qoydu. Qeyd edək ki, hazırda dünyada baş verən iqtisadi böhran fonunda ölkəmizdə bu layihənin icrası Prezident İlham Əliyevin vətəndaşlarımızın sosial məsələlərinin həllinə yüksək dərəcədə diqqət, qayğı və həssaslıqla yanaşmasının növbəti təzahürüdür. Bu, bir daha sübut edir ki, Azərbaycan vətəndaşının sosial məsələlərinin həlli, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayanır. Ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən müasir memarlıq üslubunda çoxmənzilli yaşayış binalarının tikintisini təmin etmək baxımından bu layihə əhəmiyyəti ilə seçilir.

# Enerjisistemin maddi-texniki bazası möhkəmləndirilir





Sentyabrın 3-də Enerjisistemin Reabilitasiya Proqramı çərçivəsində inşa olunan "Sumqayıt" Elektrik Stansiyasının yeni estakada nasos stansiyasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Son illərdə Azərbaycanda enerjisistemin maddi-texniki bazasının möhkəmləndirilməsi, ölkəmizin enerji potensialının daha da artırılması, yeni elektrik stansiyaları və yarımstansiyaların inşası, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində çox mühüm layihələr icra olunub. Dövlət başçısının tapşırığına əsasən 2018-ci ilin sonundan Enerjisistemin Reabilitasiya Proqramının qəbul edilərək icrasına başlanılması bu istiqamətdə həyata keçirilən işlər arasında xüsusi əhəmiyyəti ilə seçilir. Belə ki, bu proqramın icrasına vaxtında başlanaraq təcili işlər görülməsəydi, 2019-cu və 2020-ci illərin yayında artan tələbatın, həmçinin Kür və Xəzərdə su səviyyəsinin kəskin aşağı düşməsinin fonunda enerjisistemdə problemlər yarana bilərdi. Ümumiyyətlə, proqram çərçivəsində 12 elektrik stansiyasında və 23 yarımstansiyada yenidənqurma, təmir və bərpa işləri həyata keçirilib.

Son illərdə Xəzər dənizində suyun səviyyəsinin 1,7 metrə qədər aşağı düşməsi "Sumqayıt" Elektrik Stansiyasının soyutma suyunun götürülməsində ciddi problem yaratmaqla yanaşı, stansiyanın avadanlıqlarının da tədricən sıradan çıxmasına səbəb olmuşdu. Yaranmış vəziyyətlə, xüsusilə dənizdə su səviyyəsinin düşməsi ilə əlaqədar il ərzində bir neçə dəfə qəza açılmaları baş vermişdi.



Reabilitasiya Proqramı çərçivəsində "Sumqayıt" Elektrik Stansiyasında əsas avadanlıqlar, generatorlar və digər qurğular əsaslı təmir olunub. Bununla yanaşı, stansiyanın mövcud su nasos stansiyası da əsaslı şəkildə yenidən qurulub. Aparılan yenidənqurma və əsaslı təmir işləri stansiyanın etibarlı və səmərəli fəaliyyətinə müsbət təsir göstərib. Belə ki, elektrik enerjisinin istehsalına sərf olunan şərti yanacağın həcminin azalması nəticəsində ildə 10 min ton yanacağa qənaət ediləcək. Stansiyanın əsaslı təmirdən sonra yük artımı 20 meqavat olub.

Dövlət başçısı "Sumqayıt" Elektrik Stansiyasının yeni estakada nasos stansiyasını işə saldı.

Qeyd edək ki, Xəzər dənizində suyun səviyyəsinin düşmə prosesinin hələ də davam etməsi və stansiyanın avadanlıqlarının uzunmüddətli istismarı nəzərə alınmaqla, dayanıqlı və etibarlı iş rejiminə nail olmaq məqsədilə təxirəsalınmaz irimiqyaslı işlərə başlanılıb. Belə ki, dənizin içərisinə doğru, 5 metr dərinlikdən soyuq suyun götürülməsinə imkan verən 750 metr məsafədə estakada, həmçinin yeni su nasos stansiyası tikilib. Bununla da stansiyanın soyuducu su təchizatının etibarlılığı təmin edilib və ən əsası, stansiyanın fəaliyyətinin dayanmasının qarşısı alınıb. Yeni estakada üzərində tikilən və elektrik stansiyasını xüsusi üsulla soyuq su ilə təmin edən yeni nasosxana istilik energetikası sahəsində ilk təcrübə sayılır.

# Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2003-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1986-2002-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2021-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2021-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 sentyabr 2021-ci il*

# YAP İCAPP Daimi Komitəsinin iclasında təmsil olunub

Sentyabrın 3-də Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) Daimi Komitəsinin videoformatda 36-cı iclası keçirilib.

Yeni Azərbaycan Partiyasının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini Əli Əhmədov iştirak edib.

Tədbirdə Daimi Komitənin 2021-ci ilin aprel ayında keçirilən 35-ci iclasından ötən dövrdə İCAPP-ın fəaliyyəti qiymətləndirilib, qurumun 2021-ci ilin növbəti mərhələsi və 2022-ci il üçün tədbirlər planı müzakirə olunub.

İclasda həmçinin İCAPP-ın BMT ilə əməkdaşlığının genişləndirilməsi imkanları barədə təkliflər səsləndirilib.

YAP Sədrinin müavini Əli Əhmədov tədbirdə çıxış edərək bildirib ki, 44 günlük müharibədə Azərbaycan şanlı Zəfəri ilə ərazi bütövlüyünü bərpa edib, bölgədə yeni reallıq formalaşdırıb. Kifayət qədər aktual olan təhlükəsizlik məsələləri öz növbəsində siyasi partiyalar arasındakı münasibətlərə də təsir edir. Bu baxımdan, Yeni Azərbaycan Partiyası İCAPP-ın "Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu" mövzusunda xüsusi konfransının keçirilməsi təklifi ilə çıxış edib. Lakin dünyadakı mövcud pandemiya şəraiti ilə əlaqədar İCAPP-ın bir çox tədbirlərinin gələn ilədək təxirə salınmasını nəzərə alaraq, YAP da təklif etdiyi xüsusi konfransın 2022-ci ilin payızınadək təxirə salınmasını məqsədəuyğun hesab edir.

Qeyd edək ki, 2009-cu ildən İCAPP Daimi Komitəsinin üzvü olan Yeni Azərbaycan Partiyası qurumun fəaliyyətində aktiv iştirak edir. İndiyədək YAP İCAPP-ın bir sıra tədbirlərinə uğurla ev sahibliyi edib.

# Qırğızıstanın yeni səfiri etimadnaməsinin surətini Azərbaycanın xarici işlər nazirinə təqdim edib



Sentyabrın 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qırğız Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Kayrat Osmonaliyevlə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, səfirin etimadnaməsinin surətini qəbul edən nazir onu təyinatı münasibətilə təbrik edib.

Nazir Ceyhun Bayramov ölkələrimiz arasında əsrlərboyu mövcud olan etnik, mədəni, dini bağlara əsaslanan dostluq münasibətlərindən danışaraq bu əlaqələrin inkişaf perspektivlərini vurğulayıb. Hazırda Azərbaycan ilə Qırğızıstan arasında bütün səviyyələrdə qarşılıqlı anlaşmanın mövcud olduğu bildirilib. Nazir həmçinin ölkələrimiz arasında çoxtərəfli platformalarda əməkdaşlığın inkişafından məmnunluq ifadə edib.

Səfir Kayrat Osmonaliyev yeni təyin olunmasına baxmayaraq, Azərbaycan barədə məlumatlı olduğunu qeyd edib və ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini bildirib.

Səfir Qırğızıstanın xarici işlər naziri Ruslan Kazakbaevin səmimi salamlarını nazir Ceyhun Bayramova çatdırıb və onun azərbaycanlı həmkarını rəsmi səfərə dəvət etdiyini bildirib.

Görüş zamanı tərəflər ikitərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri, o cümlədən siyasi, iqtisadi, humanitar, mədəni sahələrdə əməkdaşlığın möhkəmləndirilməsi və birgə layihələrin həyata keçirilməsinə dair, eləcə də qarşılıqlı maraq doğuran regional təhlükəsizlik məsələləri üzrə fikir mübadiləsi aparıblar.

Nazir səfir Kayrat Osmonaliyevə Azərbaycandakı gələcək fəaliyyətində uğurlar arzulayıb.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Məzahir Pənahovun sədrliyi ilə 2021-ci il sentyabrın 3-də Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2021-ci il avqustun 19-da keçirilmiş iclasının protokolu təsdiq edilib.

Sonra Mərkəzi Seçki Komissiyasının qüvvədə olan bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi məsələsinə baxılıb. Komissiya üzvləri tərəfindən aparılan müzakirələr nəticəsində Mərkəzi Seçki Komissiyası "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun və Seçki Məcəlləsinin tələblərini əsas götürərək müvafiq dəyişikliklərin qəbul olunmasına qərar verib və bir sıra normativ xarakterli aktlar son dövrlərdə qanunvericilikdə edilmiş dəyişikliklərə uyğunlaşdırılıb.

Kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılan iclasda cari məsələlərə də baxılıb.

**Qərar № 3/7**

## Mərkəzi Seçki Komissiyasının 19 avqust 2021-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 19 avqust 2021-ci il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*03.09.2021-ci il*

**Qərar № 3/8**

## Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

"Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 noyabr tarixli 1616 nömrəli Sərəncamının 1-ci hissəsinin icrası məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 75.2-ci, 78.2-ci, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2008-ci il 4 iyul tarixli 6/23-7 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədin irəli sürülməsinin təsdiq edilməsi və qeydə alınması üçün təqdim edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması Qaydaları"nın 1 saylı Əlavəsində "II mərhələ - Namizədliyin qeydə alınması" hissəsi üzrə "4) Namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumat:" adlı bənddə "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 5 iyun tarixli 5/24 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzarət-təftiş xidməti haqqında Əsasnamə"nin 1.3-cü bəndində "maliyyə bazarlarına nəzarət orqanının" sözləri "Azərbaycan Respublikasının Mərkəzi Bankının" sözləri ilə əvəz edilsin.

3. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*03.09.2021-ci il*

**Qərar № 3/9**

## Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

"Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 10-cu hissəsinin icrası məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 75.2-ci, 78.2-ci, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2008-ci il 4 iyul tarixli 6/23-7 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədin irəli sürülməsinin təsdiq edilməsi və qeydə alınması üçün təqdim edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması Qaydaları"nın 1 saylı Əlavəsində "II mərhələ - Namizədliyin qeydə alınması" hissəsi üzrə:

1.1. "4) Namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumat:" adlı bənddə "Azərbaycan Respublikasının Vergilər Nazirliyi" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

1.2 "5) Mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumat" adlı bənddə "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2015-ci il 25 may tarixli 10/87 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim olunan seçki sənədlərindəki məlumatların yoxlanılması və namizədlərin qeydə alınması Qaydaları"nın 1 saylı Əlavəsində "II mərhələ - Namizədin qeydə alınması" hissəsi üzrə "Mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumat" adlı bənddə "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələri və ya müvafiq bələdiyyə orqanları, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin ərazi şöbələri və s." sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti, onun qurumları və bələdiyyə orqanları" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2009-cu il 24 avqust tarixli 23-3 saylı Qərarı ilə təsdiq edilmiş "Bələdiyyə seçkilərində namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim olunan seçki sənədlərindəki məlumatların yoxlanılması və namizədlərin qeydə alınması Qaydaları"nda "II mərhələ - Namizədin qeydə alınması" hissəsi üzrə "Mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumat" adlı bənddə "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin yerli qurumları və bələdiyyə orqanları" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti, onun qurumları və bələdiyyə orqanları" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 5 iyun tarixli 5/24 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzarət-təftiş xidməti haqqında Əsasnamə"nin 1.3-cü bəndində "Azərbaycan Respublikasının Vergilər Nazirliyinin" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 5 iyun tarixli 5/25 saylı Qərarı ilə təsdiq edilmiş "Dairə seçki komissiyasının nəzarət-təftiş xidməti haqqında Əsasnamə"nin 1.3-cü bəndində "Azərbaycan Respublikası Vergilər Nazirliyinin ərazi vergi idarəsinin, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələrinin" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin qurumlarının" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 5 iyun tarixli 5/27 saylı Qərarı ilə təsdiq edilmiş "Seçki komissiyalarına təqdim edilən imza vərəqələrində və digər seçki sənədlərində olan məlumatların düzgünlüyünün yoxlanılması məqsədilə yaradılan işçi qrupu haqqında Əsasnamə"nin 1.3-cü bəndində "Azərbaycan Respublikası Vergilər Nazirliyinin, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin (onun yanında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin)" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin.

7. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*03.09.2021-ci il*

## Mədəniyyət naziri Britaniya Şurasının Azərbaycandakı nümayəndəliyinin rəhbəri ilə görüşüb

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov sentyabrın 3-də Britaniya Şurasının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Samr Şah ilə ölkəmizdəki fəaliyyət müddətinin başa çatması münasibətilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə həmçinin mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Vasif Eyvazzadə, Britaniya Şurasının ölkə ofisinin rəhbəri vəzifəsinə təyin olunmuş Frensis Qardener-Trexo və Britaniya Şurasının əməkdaşı Dilarə İbrahimova iştirak edib.

Nazir Anar Kərimov ilk öncə Samr Şahı İordaniya üzrə Britaniya Şurasının ofis rəhbəri və Levant Klasterinin başçısı vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, ona yeni vəzifəsində uğurlar və böyük nailiyyətlər arzulayıb.

Ölkəmizdə fəaliyyət göstərən Britaniya Şurasının mədəniyyət sahəsində həyata keçirdiyi layihələri yüksək qiymətləndirən nazir Azərbaycanın Britaniya Şurası ilə əməkdaşlığa önəm verdiyini və birgə fəaliyyətin Azərbaycan və Böyük Britaniya arasında dostluq əlaqələrinin möhkəmlənməsinə istiqamətləndiyini bildirib.

Samr Şah Azərbaycanda çalışdığı müddətdə Şuranın əməkdaşları ilə birgə görülmüş işləri məmnunluqla vurğulayıb, mövcud əlaqələrin, səmərəli əməkdaşlığın növbəti illərdə də uğurla davam etdiriləcəyinə əminliyini qeyd edib, nazirə və nazirliyin kollektivinə uğurlar arzulayıb.

Görüşdə həmçinin Britaniya Şurasının ölkəmiz üzrə nümayəndəliyinin yeni rəhbəri ilə birgə fəaliyyətin uğurla həyata keçiriləcəyinə, əməkdaşlığın daha da genişləndiriləcəyinə inam ifadə edilib.

Görüş tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi ilə davam edib.

## İtaliyada keçirilən "Bərpa həftəsi - 2021" çərçivəsində Ermənistanın mədəni irsimizə qarşı törətdiyi vəhşiliklər nümayiş olunub

Avqustun 30-dan sentyabrın 4-dək İtaliya Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi, İtaliya Ticarət Agentliyi (İCE) və İtaliyanın Memarlıq, İncəsənət və Şəhərlərin Bərpası Assosiasiyasının (Assorestauro) birgə təşkilatçılığı ilə İtaliyanın müxtəlif şəhərlərində "Bərpa həftəsi - 2021" çərçivəsində silsilə tədbirlər keçirilir. Sözügedən tədbirlərdə Azərbaycandan Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin aparat rəhbəri Read Qasımov iştirak edirlər.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirə Azərbaycanla yanaşı, Albaniya, Livan, Kuba, Səudiyyə Ərəbistanı Krallığı və İsraildən olan nümayəndə heyətləri də qatılıb.

"Bərpa həftəsi - 2021" çərçivəsində Bari şəhərinin Fiera del Levante sərgi kompleksində keçirilmiş tədbirinin açılış mərasimində Bari şəhər rəhbərliyi, Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin, Assorestauronun, Bari Vilayətinin memarlar, landşaft dizaynerləri və bərpaçılar Assosiasiyasının, Fiera del Levante Sərgisinin, Ferrara Sərgi Konqresinin rəhbər şəxsləri çıxış ediblər.

Sentyabrın 2-də "Bərpa həftəsi - 2021 çərçivəsində Azərbaycanla bağlı ölkə təqdimatı təşkil olunub. Açılış nitqi ilə Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə, İtaliya Ticarət Agentliyinin Sənaye Tərəfdaşlığı və Beynəlxalq Qurumlarla Əlaqələr Departamentinin müdiri Roberto Lovato və Assosrestauronun texniki direktoru Andrea Qriletto çıxış edərək Azərbaycan-İtaliya strateji tərəfdaşlığı, müxtəlif sahələrdə mövcud olan yüksək səviyyəli əlaqələrdən və qarşılıqlı faydalı mübadilələrdən, mədəniyyət abidələrinin qorunması və bərpası sahəsində əməkdaşlıq imkanları, o cümlədən Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin yenidən qurulması və bərpası çərçivəsindəki imkanlardan danışıblar.

Tədbirdə Dövlət Xidmətinin rəisi Azad Cəfərli Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinə "Böyük qayıdış" və mədəni irsin bərpasına yönəlmiş davamlı proses haqqında geniş təqdimatla çıxış edib. Ermənistan Respublikası tərəfindən 30 il ərzində işğal altında saxlanılan ərazilərimizdə tarix və mədəniyyət abidələrinin dağıdılmasına, mənimsənilməsinə və vandalizmə məruz qalmasına, qeyri-qanuni arxeoloji qazıntıların aparılmasına dair ətraflı məlumatlar və fotofaktlar təqdim edib, mədəni irsimizə qarşı törədilmiş vəhşiliklər nümayiş olunub. Həmçinin Azərbaycan tərəfindən bərpa prosesinə başlanıldığı, çoxsaylı minalardan təmizləmə fəaliyyətinin davam etdiyi diqqətə çatdırılıb. Vurğulayıb ki, postkonflikt dövründə davamlı sülhün və rifahın tam bərqərar olması məqsədilə infrastruktur və şəhərsalma layihələri həyata keçirilir. Bunun məntiqi davamı olaraq Azərbaycan tərəfindən BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə "Mədəniyyət naminə sülh" kampaniyasına bağlanıldığı qeyd olunub. Təqdimatda abidələrin dağıdılmasının miqyası barədə statistik məlumat, Ağdam şəhərinin və azad olunmuş digər ərazilərimizin acınacaqlı durumu diqqətə çatdırılıb.

Dövlət Xidmətinin rəsmisi qeyd edib ki, Azərbaycan tərəfi bərpa prosesi çərçivəsində qarşılıqlı faydalı təkliflərə açıqdır və bu istiqamətdə İtaliyadan olan tərəfdaşların və şirkətlərin bu prosesə töhfə verməsini müsbət qiymətləndirir.

Daha sonra "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin aparat rəhbəri Read Qasımov İçərişəhərdə aparılan bərpa işləri haqqında, gələcəkdə açılması nəzərdə tutulan unikal muzey layihəsinə dair məlumat vermişdir.

Azərbaycan nümayəndə heyəti "Bərpa həftəsi - 2021" çərçivəsində 3 sentyabr tarixdə Matera şəhərində keçiriləcək tədbirlərdə iştirak edəcək.

## "DOST İş" Mərkəzi "YAŞAT" Fondunun şəhid ailələri və qazilərlə bağlı tədbirlərinə dəstək məqsədilə 150 nəfəri işlə təmin edib




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki "DOST İş" Mərkəzi "YAŞAT" Fondunun şəhid ailələri və qazilərlə bağlı tədbirlərinə əlavə dəstəyin göstərilməsi məqsədilə 150 nəfəri işlə təmin edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, "İşsizin DOST"u proqramı çərçivəsində 150 sosial işçi Bakı və regional "ASAN xidmət" mərkəzlərinə təhkim edilib.

İşə qəbul olunan 150 nəfərin hər biri ilə mərkəz arasında əmək müqaviləsi bağlanıb. Ümumilikdə "İşsizin DOST"u proqramı çərçivəsində hazırda 56 min şəxs ödənişli ictimai işlərdə çalışır.

## Daha iki Vətən müharibəsi qazisi yüksək texnologiyalı protezlərlə təmin edilib





Prezident İlham Əliyevin tapşırığı əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Vətən müharibəsi qazilərinin son nəsil müasir protezlərlə təminatı işləri davam etdirilir.

Nazirlik Vətən müharibəsinin daha iki iştirakçısını - Mingəçevir şəhər sakini Abdulla Abdullayevi və Qazax rayon sakini Abbas Yusifovu yüksək texnologiyalı protezlərlə təmin edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, onlar Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində ilkin hazırlıq mərhələsi keçdikdən sonra ən müasir reabilitasiya vasitələri ilə təmin ediliblər.

A.Abdullayev Ağdam rayonu uğrunda döyüşlərdə ağır yaralanaraq hər iki ayağını itirib. Dövlət başçısının Sərəncamları ilə o, "Cəsur döyüşçü" və "Ağdamın işğaldan azad olunmasına görə" medalları ilə təltif edilib.

A.Yusifov isə Suqovuşan, Talış istiqamətində gedən döyüşlərdə ağır yaralanaraq sol ayağını itirib. O, Prezident İlham Əliyevin Sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenivə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib. Hər iki qaziyə əlilliyə görə aylıq sosial ödənişlər təyin edilib.

Nazirlik ötən ilin dekabrından qazilərin yüksək texnologiyalı protezlərlə təminatına başlayıb və artıq 140-dan çox hərbçi ən müasir protezlərlə təmin olunub və bu proses davam edir.

## Daha iki rayonda sağlamlıq imkanları məhdud uşaqların səyyar sosial reabilitasiyasına başlanılıb





Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi Bakının daha iki rayonunda - Nərimanov və Binəqədi rayonlarında sağlamlıq imkanları məhdud 6 yaşadək uşaqların səyyar formada sosial reabilitasiyası tədbirlərinə başlayıb.

AZƏRTAC xəbər verir ki, agentliyin psixoloq, pedaqoq, sosial işçi və loqopedlərdən ibarət mütəxəssislər qrupu həmin uşaqların yaşadıqları evlərə gedərək onları kompleks (sistemli) şəkildə sosial-psixoloji və sosial-pedaqoji reabilitasiya xidmətləri ilə təmin edir.

Binəqədi rayonunda 3 yaşlı Məryəmə də həmin xidmətlər göstəriləcək. Sentyabrın 3-də Sosial Xidmətlər Agentliyinin əməkdaşları onun yaşadığı ünvanda olaraq uşağın sağlamlıq vəziyyətini qiymətləndiriblər. Uşağın anası Mətanət Babazadə deyib:

- 2018-ci ilin martında Məryəm dünyaya gələndə həkimlər onun Daun sindromu ilə doğulduğunu dedilər. Əlbəttə, bu xəbər ilk vaxtlar mənə pis təsir etsə də, sonradan bunun heç də qorxulu sindrom olmadığını öyrəndim. İndi Məryəmin 3 yaşı var, bu yaxınlarda Sosial Xidmətlər Agentliyinə müraciət etmişik. Gələn həftədən xidmətin əməkdaşları onunla məşğələlərə başlayacaqlar.

Sosial Xidmətlər Agentliyinin nümayəndəsi məlumat verib ki, həftədə 5 gün olmaqla hər dəfə 30-40 dəqiqə ərzində uşaqlar üçün reabilitasiya seansları aparılacaq.

Sağlamlıq imkanları məhdud uşaqlarda davranış pozuntuları, əhvalın qeyri-sabitliyi, hiperaktivlik, adaptasiya və həmyaşıdlarla ünsiyyət problemi və s. kimi halların reabilitasiyası aparılır. Bu məqsədlə müxtəlif proqram və terapiyalardan, pedaqoji texnika və pediatrik reabilitasiya üsullarından istifadə olunur. Psixoloji konsultasiyalar, həftədə beş dəfə reabilitasiya seansları, valideynlər üçün maarifləndirici təlim və seminarlar keçirilir.

Xidmətdən yararlanmaq istəyənlər Sosial Xidmətlər Agentliyinə və agentliyin Nərimanov və Binəqədi rayonları üzrə filiallarına müraciət edə bilərlər.

Qeyd edək ki, bundan əvvəl bu ilin iyun ayında pilot olaraq paytaxtın Səbail və Yasamal rayonlarında bu tədbirlərə başlanılıb və bütün ölkə üzrə bu işlərin genişləndirilməsi nəzərdə tutulub.

## "TURAZ Şahini - 2021" təlimlərində ətrafı tanıma uçuşları keçirilib







"TURAZ Şahini - 2021" birgə taktiki-uçuş təlimləri davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərin planına əsasən Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin pilotları ətrafı tanıma uçuşlarını icra ediblər.

Uçuşlardan əvvəl təyyarəçilər üçün brifinq təşkil olunub, hava şəraiti və digər texniki məsələlər müzakirə edilib. Təhlükəsizlik qaydaları çatdırılıb.

Sonra türkiyəli pilotlar F-16 qırıcı təyyarələrində, azərbaycanlı hərbi təyyarəçilər isə Miq-29 və Su-25 təyyarələrində uçuşlar keçiriblər.

Təlimlər davam edir.



## QARABAĞ dirçəliş yolundadır



# “Zəfər yolu”nun inşası tamamlanmaq üzrədir

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun ölkəmizin mədəniyyət mərkəzi elan olunan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən, dövlət başçısı tərəfindən “Zəfər yolu” adlandırılan avtomobil yolunun inşası tamamlanmaq üzrədir.

















AZƏRTAC xəbər verir ki, tikintisinə 10 ay bundan öncə başlanılmış “Zəfər yolu”nun sentyabr ayı ərzində 2 hərəkət zolaqlı olmaqla asfaltlanmasının yekunlaşdırılması planlaşdırılır.

Dövlət başçısının tapşırığına əsasən, ötən il noyabr ayının 16-da təməli qoyulmuş və uzunluğu 101 kilometr təşkil edən “Zəfər yolu” Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-ci texniki dərəcəyə uyğun inşa edilir. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə “Zəfər yolu” Qarabağımızın tacı olan Şuşa şəhərinə qədər uzanır.

Hazırda yol boyu son tamamlanma işləri icra edilir.

Belə ki, “Zəfər yolu” boyu layihəyə uyğun olaraq artıq qazma işləri tamamlanıb, yol boyu əks dolğu işləri aparılmaqla və bəzi çətin relyefə malik qayalıq ərazidən keçən hissələrdə layihə eninin alınması üçün dağların partladılması üsulu ilə yeni yol yatağının, həmçinin yol əsasının inşası işləri həyata keçirilərək yekunlaşdırılıb.

Son mərhələ üzrə yolda asfaltlanma işləri aparılır ki, artıq 31 kilometrlik hissədə 2 lay, 61 kilometrlik hissədə isə 1 lay olmaqla, ümumilikdə, 92 kilometrlik hissə asfaltlanıb. Digər hissələrdə bu çərçivədə işlər davam etdirilir.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun 4 yeni avtomobil körpüsünün inşası yekunlaşdırılıb. Körpülərin, uzunluqları 45, 80 və 90 metr olmaqla yolun 26.9-cu, 37.2-ci, 37.5 və 57.3-cü kilometrlik hissələrində inşa edilib. Bununla da bu avtomobil yolu ilə rahat gediş-gəliş təmin olunub.

Bundan başqa, layihə çərçivəsində suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrli 166 dairəvi boru və 11 düzbucaqlı su keçidi, həmçinin 120 kilometrə yaxın beton küvetlər tikilib, 82 drenaj quyusu qazılıb, 5.6 kilometr uzunluğunda müxtəlif diametrli drenaj borular çəkilib, 3.2 kilometr uzunluğunda istinad divarları və 9 yerdə yeraltı keçid inşa edilib.

İşin həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin “16 N-li Xüsusi Təyinatlı Yol İstismarı” MMC, “7 N-li Magistral Yolların İstismarı” MMC, “23 N-li Yol İstismarı” MMC və “43 N-li Yol İstismarı” MMC ilə subpodratçı olaraq yol tikintisi sahəsində ixtisaslaşmış və ölkəmizdə indiyədək bir neçə layihəni uğurla tamamlamış Türkiyənin “KOLİN” İnşaat Turizm San. və Tic. Anonim Şirkəti, həmçinin “Azvirt” MMC və “Körpü Bina Tikinti” MMC birgə icra edir.

Tikinti işləri “İnşaat Norma və Qaydaları”nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir.

İşğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən “Zəfər yolu” Füzuli və Şuşa şəhərləri də daxil olmaqla, sözügedən rayonların 20-dən artıq yaşayış məntəqəsini əhatə edir.

Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin nəqliyyat, rabitə və yüksək texnologiyalar İşçi Qrupu çərçivəsində digər aidiyyəti dövlət qurumları ilə koordinasiyada həyata keçirilən bu yol layihəsi Qarabağın vahid nəqliyyat konsepsiyasının ayrılmaz tərkib hissəsini təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

Bütün yollar Qarabağa aparır...

# Qarabağın hava qapısı

## Azərbaycan təyyarələri xaricə Qarabağdan da uça biləcəklər

*Əvvəli 1-ci səh.*

Qeyd edək ki, ən müasir səviyyədə inşa olunan Füzuli Beynəlxalq Hava Limanında sentyabr ayının sonuna qədər sərnişin terminalının istismara verilməsi işləri tam başa çatdırılacaq. Hava limanında uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilib. Aeroport istənilən tip hava gəmisini qəbul etməyə imkan verəcək. Avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə (HHİ) qülləsinin tikintisi başa çatdırılıb. Bunun sayəsində Füzuli hava limanına ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanması mümkün olacaq.



Tarixin qeyri-adi dönüşünün nəticəsidir ki, 11 ay əvvəl Füzuli hava limanının tikildiyi ərazi Azərbaycan igidlərinin döyüş meydanı olduğu halda, bu gün həmin cəsur oğullarımızın sayəsində bura yenidənqurma işlərinin aparıldığı məkana çevrilib. Lakin Füzuli hava limanının inşası işğaldan azad edilmiş ərazilərimizdə müasir kommunikasiyaların qurulması sahəsində həyata keçirilən, iqtisadi, strateji baxımdan dəyərli olan yeganə layihə deyil. Zəngilan və Laçında da tikilən hava limanları Azərbaycanın tarixi torpaqlarına böyük qayıdışı üçün vacib sayılan çox mühüm strateji layihələrdir.

### Qarabağın hava limanları turistlərin daha qısa yolla işğaldan azad olunan ərazilərimizə səfər etməsinə imkan verəcək

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov hesab edir ki, Füzuli aeroportu regionda ən qısa zamanda inşa edilən beynəlxalq hava limanlarından biridir. Bu ilin əvvəlində inşasına başlanılan hava limanında artıq yaxın vaxtlarda ilk uçuşları həyata keçirmək mümkün olacaq: “Hava limanına bu ilin may ayında səfər edəndə işlərin intensivliyini müşahidə etmişdik. Bu ilin may ayında sadəcə torpaq sahələrindən ibarət olan ərazi artıq eniş-uçuş zolağına çevrilib. Cəmi 4 aya yaxın müddətdə hava limanının ilkin infrastrukturunu əsaslı şəkildə formalaşdırmaq mümkün olub.

Deputatın sözlərinə görə, Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən xarici turistlərin sayı kifayət qədər çoxdur. Füzulidə hava limanının tikilməsi işğaldan azad edilmiş ərazilərimizə xarici turistlərin cəlbi baxımından olduqca faydalı olacaq. Bu aeroport regionda turizmin canlanması üçün yeni imkanlar yaradacaq. Turistlər bu hava limanı vasitəsilə işğaldan azad olunan ərazilərimizə daha sərfəli və qısa yolla səfər edə biləcəklər: “Bu amil işğaldan azad edilmiş ərazilərimizə, eləcə də Füzuli rayonuna gələcək turistlərin sayına müsbət təsir göstərəcək və ümumilikdə ölkəmizə daha çox turistin gəlməsinə imkan yaradacaq. Eyni zamanda hava limanı yükdaşımalar, xüsusən beynəlxalq yükdaşımalar üçün vacib əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərimizin sənaye potensialını nəzərə alsaq, Füzulidə açılacaq hava limanı həm də həmin ərazilərdə istehsal olunacaq sənaye məhsullarının dünya bazarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından vacibdir”.

Deputat qeyd edir ki, Şərqi Zəngəzur iqtisadi rayonunun potensialından istifadə etmək, həmçinin sənaye və kənd təsərrüfatı məhsullarının daha böyük bazarlara çıxarılması baxımından Laçında da yeni aeroportun inşasına ehtiyac var idi. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin təməlini qoyduğu Laçın Beynəlxalq Hava Limanı da hərbi, strateji, iqtisadi baxımdan mühüm əhəmiyyətə malik olacaq.

V.Bayramovun qənaətinə görə, Şərqi Zəngəzurun uzun müddət işğal altında qalması onun potensialından istifadə edilməsinə imkan verməyib. Hazırda sözügedən iqtisadi rayonun Azərbaycan iqtisadiyyatında payı cəmi 0.1 faizdir. İşğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma mərhələsindən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonu Azərbaycan iqtisadiyyatının ən azı 8 faizini formalaşdırmaq potensialına malik olacaq.



Bu, illik 5 milyard manatdan artıq yeni dəyərin formalaşması anlamına gəlir. Bu isə yaxın illərdə Qarabağda 10 minlərlə yeni iş yerinin açılması deməkdir.

### Düzgün marketinq qurularsa, Füzuli aeroportunun əhəmiyyəti daha artıq olar

Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq istiqsadiyyat kafedrasının dosenti Emin Qəribli deyir ki, Füzulidə, Laçında və Zəngilanda aeropotların olması Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun regionun mərkəzlərindən birinə çevrilə bilməsinə imkan yaradır. Şərqi Zəngəzurda aeropotun tikilməsi buranın artıq nəqliyyat habına çevrildiyini göstərir. Əgər gələcəkdə düzgün marketinq qurularsa, buradan digər ölkələrə uçuşlar daha ucuz qiymətə olarsa, Füzuli aeropotunun dövriyyəsi və əhəmiyyəti daha artıq olar.

E.Qəribli hesab edir ki, azad edilmiş ərazilərimizdə aeroportların tikilməsi xarici iş adamlarının bu bölgəyə investisiya yatırmaq imkanlarını da artırır: “Nəqliyyat kommunikasiyalarının qurulması regionun və Azərbaycanın iqtisadi inkişafına stimul verəcək bir amildir. Nəqliyyat kommunikasiyaları, eləcə də aeroportlar həmin bölgənin əhəmiyyətini artırır, onun dünya iqtisadiyyatına daha güclü inteqrasiyası üçün yeni imkanlar yaradır. İnkişaf etmiş dövlətlər - Türkiyə, Almaniya, İtaliya azad edilmiş ərazilərimizə investisiya qoymaq istəyirlər. Lakin bu da faktdır ki, kommunikasiyanın olmaması böyük investor üçün müəyyən çətinliklər yarada bilər. Aeroportun olması o deməkdir ki, xarici investorlar artıq buraya problemsiz gələcəklər. Digər tərəfdən, azad edilmiş ərazilərin smart konsepsiya əsasında yenidən qurulması planlaşdırılır. Bunun icrası üçün isə əraziyə yeni texnologiyaların gətirilməsi lazımdır. Əgər biz azad edilmiş ərazilərimizə yeni texnologiyalar gətirmək istəyiriksə, burada nəqliyyat infrastrukturunun qurulması vacib şərtdir. Azad edilmiş ərazilərimizdə kommunikasiyanın bütün növlərinin tətbiqinə ehtiyac var. Bu istiqamətdə işlər görülür və bundan sonra da görüləcək”.

Emin Qəriblinin fikrincə, nəqliyyat qovşağında yerləşən Azərbaycan ərazisindən Avropaya məhsullar daşınır. Həmin məhsullar Zəngəzurdan təyyarə ilə daşınarsa, bu, bizim iqtisadiyyatın şaxələndirilməsinə, eyni zamanda məhsulların Avropaya daha qısa zamanda çatdırılmasına imkan verəcək.

### Aeroportlar Azərbaycana əlavə dividendlər qazandıracaq

Emin Qəribli hesab edir ki, nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi gələcəkdə ölkəmizin inkişafının dayanıqlığını təmin edən amillərdən biri olacaq. Aeroportların inşası layihələri Azərbaycana yalnız əlavə dividendlər qazandıracaq: “Elə dövlətlər var ki, kifayət qədər böyük olsalar da, yetərincə maliyyə resursuna malik deyillər, buna görə də onların investisiya yatırmaq imkanları məhdud olur. Amma dövlətimiz bu baxımdan yetərincə resursa malikdir. O, topladığı maliyyə resurslarını gələcəyə istiqamətlənmiş layihələrin icrası üçün sərf edir. Bu layihələr gələcəkdə bizim iqtisadi qaynaqlarımızı təmin edəcək”.

İqtisadçı alim qeyd edir ki, beynəlxalq nəqliyyat kommunikasiya imkanları genişləndikcə ölkənin beynəlxalq iqtisadi reytinqdəki mövqeyi də yaxşılaşır. Bu baxımdan aeroportların tikilməsinin xüsusi əhəmiyyəti var: “Azərbaycanda qısa zaman ərzində həyata keçirilən beynəlxalq nəqliyyat layihələrini beynəlxalq qurumlar da yüksək qiymətləndirirlər. Həmin layihələrin icrası Azərbaycanın beynəlxalq reytinqdəki mövqeyini daha da irəli aparacaq. Bu da Azərbaycana investisiya axınını artıracaq və iqtisadi inkişaf üçün geniş zəmin yaradacaq”.

Emin Qəribli aeroportların inşasını turizmin inkişafı baxımından da olduqca yüksək dəyərləndirir. Onun sözlərinə görə, aeroportlar sağlamlıq turizm imkanlarına sahib olan Qarabağa müalicə məqsədilə üz tutan turistlərin sayının artmasına, bu isə öz növbəsində ölkəyə əlavə valyutanın daxil olmasına imkan verər.

Prezident İlham Əliyevin təşəbbüsü ilə gercəkləşən bütün layihələr indiyədək çox uğurla həyata keçirildiyi üçün kommunikasiyaların qurulması layihələrinin də ölkəmiz, o cümlədən region üçün xeyirli olacağını əminliklə söyləyə bilərik. Bu gün yeni aeroportlar azad edilmiş torpaqlarımızda reallaşan ilk əhəmiyyətli layihələrdən biri olsa da, onlar həmin ərazilərimizi dirçəldəcək yeganə layihələr olmayacaq. Erməni vandalizminin ən acı üzünü görən torpaqlarımız onlara verdiyimiz yeni nəfəs sayəsində yenidən doğulacaqlar. Güclü iqtisadiyyata malik olan Azərbaycan yeni-yeni inkişaf layihələri gercəkləşdirməklə bu bölgəni regionun inkişaf etmiş ən mühüm mərkəzlərindən birinə çevirəcək. Ərazilərdə aparılan yenidənqurma işlərinin sürəti və miqyası da onu deməyə imkan verir ki, həmin vaxt çox da gec olmayacaq. İşğal altında olan torpaqlarımızda apardığı döyüş əməliyyatları ilə dünya hərb tarixini yeniləyən Azərbaycan qısa müddətə yenidənqurma işlərinə görə də dünya ölkələri üçün istinad mənbəyi olacaq.

***İlhamə İSABALAYEVA,***
***“Azərbaycan”***

## “Yolumuz Qarabağadır! Qarabağ Azərbaycandır!” layihəsi davam edir

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində (MATM) fəaliyyət göstərən “Gənc muzeyşünaslar və muzeysevərlər klubu”nun üzvləri müəssisənin əməkdaşı Sahibə Ələkbərovanın rəhbərliyi ilə “Yolumuz Qarabağadır! Qarabağ Azərbaycandır!” layihəsi çərçivəsində Cəbrayıl rayon Tarix-Diyarşünaslıq Muzeyini ziyarət ediblər.

Bu barədə AZƏRTAC-a Tarix muzeyindən məlumat verilib. Hazırda Cəbrayıl rayon Tarix-Diyarşünaslıq Muzeyi fəaliyyətini Azərbaycan İstiqlal Muzeyində davam etdirir. Muzeyin nadir xalça nümunələri, qadın bəzəkləri və s. əşyaları İstiqlal muzeyinin Qarabağ zalında “Xilas olunmuş xəzinəmiz” adı ilə nümayiş olunur. Muzey haqqında klubun üzvlərinə məlumat verilib.

Muzeyə MATM-ın nəşrləri təqdim olunub. Xatırladaq ki, bu il avqustun 31-də klubun üzvləri Qubadlı rayon Tarix-Diyarşünaslıq Muzeyində olublar. Muzey haqqında onlara məlumat verilib. Bildirilib ki, 1993-cü ildə Qubadlı rayonu ermənilər tərəfindən işğal olunan zaman muzeyin eksponatları düşmən tərəfindən vəhşicəsinə talan edilib.

## Meksika telekanalı Azərbaycanın mədəniyyət paytaxtı Şuşa haqqında reportaj yayımlayıb

Meksikanın böyük tamaşaçı kütləsinə malik “Canal Once” telekanalı Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etmiş tanınmış meksikalı jurnalist Federiko Lamontun Şuşada səfir Məmməd Talıbovdan bölgədəki vəziyyət barədə götürdüyü müsahibəni yayıb.

AZƏRTAC xəbər verir ki, müsahibədə əsası Pənahəli xan tərəfindən qoyulmuş Şuşanın Azərbaycan üçün xüsusi coğrafi-siyasi və tarixi-mədəni əhəmiyyət kəsb etdiyini bildirən diplomat şəhərin işğaldan azad edilməsinin hər bir azərbaycanlı üçün böyük əhəmiyyət daşıdığını söyləyib.

Hazırda 30 ilə yaxın işğal atında qalmış və erməni vandalizminə məruz qalmış işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma və bərpa işlərinin aparıldığı diqqətə çatdırılıb, Azərbaycanın qarşısında duran ən vacib məqsədlərin bu ərazilərin yaşayış infrastrukturunun yenidən qurulması və azərbaycanlı məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qayıtmasının təmin edilməsi olduğu bildirilib.

Eyni zamanda azad olunmuş ərazilərdə Ermənistan tərəfindən kütləvi minalanma aparıldığı, habelə işğaldan ziyan görmüş ərazilərdə mülkü yaşayış infrastrukturunun tamamilə məhv edildiyi barədə məlumat verilib, hazırda Azərbaycan tərəfindən həmin ərazilərin minalardan təmizlənməsi istiqamətində işlərin görüldüyü vurğulanıb.

Müxbirin tanınmış fransız yazıçısı Aleksandr Dümanı şahmatda məğlub edən görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvan barədə sualına cavab verən səfir onun sonuncu Qarabağ xanının qızı olduğunu, onun kimi, Azərbaycanın bir sıra görkəmli şəxsiyyətlərinin Şuşada anadan olduğunu söyləyib. Bir çox mədəni abidələr kimi, Xan qızı Natəvanın sarayının da erməni vandalizminə məruz qaldığı təəssüflə qeyd edilib.



# Hamısı inanılmaz yuxudakı qədər gözəl idi...

*İnsan ecazkar varlıqdır, hara getsə, dünyanın harasında olsa, özünə yaxın, iç dünyası ilə həmahəng notların və naxışların axtarışına çıxır. Amma dünyada elə yerlər var ki, getsən, görsən belə, səni geri çağırmır, yaddaşına bənzərsiz xatirələrlə hopmur və sən özündən asılı olmayaraq bir də geriyə can atmırsan. Elə yerlər də var ki, səni vətən kimi bağrına basıb özünə alışdırır, ruhunun ayrılmaz bir parçasına çevrilir. İstəsən belə, kövrək xatirələri unuda bilmirsən və anlayırsan ki, gördüklərin, eşitdiklərin və yaşadıqların artıq həyatının ayrılmaz bir parçasına çevrilmişdir.*

*Bu baxımdan Azərbaycan əcnəbi səyyahlar üçün bəlkə də dünyanın ən çox sevilən, maraqlı ölkələrindəndir. Yaşından və zamandan asılı olmayaraq, kim gəlirsə-gəlsin, ölkəmizə, onun qonaqpərvər və tolerant insanlarına, gözəl təbiət mənzərələrinə aşiq olur, onları unuda bilmir. Hara getsə, haralarda dolaşsa belə, yenə də körpə uşaq ana qoynuna necə atılırsa, elə böyük bir sevgi ilə bizə sarı geriyə qanadlanır. Nə məsafə uzaqlığı, nə də koronavirus vahiməsi onlara mane ola bilir.*

*Dünyanın alışdığımız mizan-tərəzisinin pozulduğu, insanların nə baş verdiyini anlamağa çətinlik çəkdiyi pandemiya səksəkəli bu çətin, xoflu günlərdə də Azərbaycana nə vaxtsa gələn əcnəbilər sərhəd və hüdudlarının təyin olunması mümkün olmayan çılğınlıqla geriyə can atırlar. Bilirsinizmi niyə? Ona görə ki, onlar burada fərqli insani münasibətlərin, təkrarsız qonaqpərvərliyin və bir də tolerantlığın şahidi olurlar. Azərbaycan və onun regionları, tanış olduqları insanların hər biri, üzlərinə açılan istənilən qapı onları möhkəm tellərlə özünə bağlayır. Bu saysız-hesabsız xatirələrdən necə ayrıla bilərsən axı!?*

*Belə əcnəbilərdən birinin, Azərbaycana iki il əvvəl ilk dəfə qonaq gələn italiyalı Liziya Del Olionun xatirələri Moskvada Leyla xanım Əliyevanın təsisçisi olduğu "Baku" jurnalında dərc edilib. Həmin yazının tərcüməsini oxucularımıza təqdim edirik. Onu da əlavə edək ki, yalnız bu yazı ilə onların bütün təəssüratları bitmir. Liziya və indi onun həyat yoldaşı, "Baku" jurnalının fotomüxbiri Aleksey Pivovarovun ölkəmizə səfərinin ən maraqlı məqamları ola bilsin ki, bu iki gənc üçün hələ də həyatlarının kəşf edilməyən bir səhifəsi kimi qalır. Məsələ burasındadır ki, onlar bu ölkəyə dost kimi gəlmiş və qayıdanda ailə quracaqlarına qərar vermişlər. Onların Azərbaycan sərgüzəştləri sonu gözəl bitən nağıla bənzəyir. Bu səyahət Azərbaycanla bağlı zəngin xatirələrdən savayı, həm də maraqlı bir sevgi tarixçəsidir. O üzdən belə qərara gəldik ki, bu sevgi tarixçəsini də qələmə alaq.*

*Öncə Liziyanın "Bakı" jurnalındakı səfər təəssüratlarını təqdim edirik.*

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Azərbaycanla tanışlıq. Yadda nə qaldı?







"Bu gün mən əvvəl olduğu kimi, Azərbaycanı gəzib dolaşa bilmirəm. Mən bu ölkə üçün ata yurdum Apuliyadakı doğma evim qədər darıxıram".

Azərbaycana səfəri haqqında italiyalı gənc qız Liziya Del Olio danışır:



- 2019-cu ildə ərim - "Bakı" jurnalının fotomüxbiri Alekseylə birlikdə həyatımda ilk dəfə Azərbaycana səyahətə getdik. Biz Baridən - təhsil aldığım və bütün ruhumla bağlandığım şəhərdən səyahətimizə başladıq və uçub Bakıya gəldik. Yerə qonan kimi ruhum qərib hisslərin ağuşuna atıldı, anındaca anladım ki, bu iki şəhər təsəvvürə gəlməz dərəcədə bənzərdi.

Biz Bakıda eyni ilə Barinin bulvarına bənzəyən Dənizkənarı parka gəzintiyə çıxdıq. Şəhidlər xiyabanının ayağındakı meydançadan şəhərə baxanda o mənə həddən artıq böyük və hüdudsuz görünürdü. Bizim Baridə də şəhərə belə ecazkar, amma ondan dəfələrlə kiçik valehedici mənzərə açılır. Demə, Bari miniatür Bakı imiş, lakin hər iki şəhərin mərkəzində eyni izdiham, eyni qələbəlik var. Hiss etdiyim doğmalıqlar mənə özümü sanki evimdəki kimi hiss etməyə imkan verirdi. Sanki inanılmaz möcüzə şəxsən mənim üçün kiçik Barini qəfildən belə gözəl bir tərzdə böyütmüşdü.

Biz bütün ölkəni - Lənkərandan Qubaya, İran sərhədindən Rusiya sərhədinə kimi gəzib dolaşdıq. Mən ömrümün ən gözəl macəralarını yaşadım və bu günün özündə belə, o yolları bir də keçmək, iki il əvvəl görüşdüyüm mehriban insanlarla bir də rastlaşmaq, bir də Quba paxlavası və bükməsi, gilas və qaysı mürəbbəsi ilə bəzədilən süfrədə dadlı Azərbaycan çayı içmək istəyirəm. İlk günlər mənə qəribə gəlirdi ki, axı insanlar gün ərzində necə bu qədər çay içə bilərlər. Amma Azərbaycanda keçirdiyim günlər nəhayət ki, mənə də qəhvəni daha faydalı və dadlı içki ilə əvəz etməyi öyrətdi. Təəssüf ki, İtaliyada "Azərçay" tapmaq mümkün olmadığından Hindistan çayı dəmləməyə məcburuq.

İndi burada, İtaliyada havalar qızan kimi biz də dostlarımızı çaya qonaq etmək üçün öz samovarımıza od salırıq.

Həmişə Azərbaycanı nostalji və romantik hisslərlə yada salıram. Zənnimcə, Apuliya və Azərbaycan bir-birinə yalnız eyni paraleldə yerləşməsinə görə yox, həm də hər ikisinin əsas sərvəti və möcüzələri sayılan insanlarla bağlıdır.

Məhz qlobal pandemiya zamanı daxilən hiss edirəm ki, iki il əvvəl mənim Azərbaycana səyahətimi əsrarəngiz



hisslərlə zənginləşdirən, özümü öz evimdəki kimi hiss etməyə imkan yarada bilən bütün insanların hamısına minnətdarlığımı bildirməliyəm.

Öncə bizə "Azərbaycan" qəzetinin yeni dünyalara yol açan əməkdaşı Bahadur İmanquliyevə minnətdarlığımı bildirmək istəyirəm, çünki o olmasaydı, biz bu bənzərsiz nağılların dərinliyinə heç vaxt təkbaşına enə bilməzdik. O, mənə bir ata kimi diqqətli və qayğıkeş idi və onun yanında mən ilk dəfə Avropa İttifaqının hüdudlarından kənara çıxan insan kimi özümü tam təhlükəsiz hiss edirdim. Mən ona coğrafi baxımdan bizə çox uzaq olan qərib bir ölkənin qapılarını taybatay üzümüzə açdığına, bir xalqın ruhunun ən gizlin guşələrinə sehrli səyahətlərə imkan yaratdığına görə dərindən minnətdaram. Mən həmçinin "Azərbaycan" qəzetinə və böyük simpatiya bəslədiyim sürücümüzə də təşəkkürümü bildirmək istəyirəm.

Həmçinin Qubanın ucqar dağ kəndi Haputda qarşılaşdığım hər bir kəsə minnətdaram. Orada biz tərəkəmə həyat tərzi sürən qədim qırızlarla tanış olduq. O kəndə gedib çatmaq üçün macəralar dolu uzun yol keçdik. Biz əvvəl uca dağların sinəsindən, dərin dərələrin üstündən keçən yollarla getdik, sonra isə maşınımızı dəyişib bulanıq və vahiməli dağ çayını sovet dönəmindən qalan "Villis"lə keçdik. Ən maraqlısı da o idi ki, maşında yeddi nəfər idik və məndən başqa hamısı kişi idi.

Orada, dağların sinəsində mənim aydınlıq gətirmək istədiyim heç bir sual yox idi - bu möhtəşəm ucalıqların ağuşunda lal olmuşdum. Hamısı inanılmaz yuxudakı qədər gözəl idi.

Bizi mehriban qarşıladılar, tanımadığımız insanlar bizim üçün süfrə açdılar, ən yaxşı xörəklərini könül xoşluğu ilə masaya düzdülər. Mən orada gözəl bir qadın - ana tapdım özümə. O məni mələk kim mehriban baxışları ilə öpdü, əzizlədi, özünə bağladı, öz balası kimi ərköyüncəsinə qayğımı çəkdi.

Ənənəyə görə, qonaqlar çox olduğundan hamımız rahat yerləşək deyə, kişilər və qadınlar ayrı-ayrı otaqlarda yatdıq. Gecə dağlarda soyuq olduğundan mənim üçün rahat və isti yataq hazırladılar və yerimə girib gözlərimi yumanda bu qayğıkeş qadının üstümə ikinci yorğanı atdığını hiss etdim.

Adı yadımda qalmasa da, üzünü unuda bilmirəm. Ona da dərindən təşəkkür edirəm.

Səhərisi gün biz oyanıb bayıra çıxanda kəndin bütün uşaqları məni dövrəyə aldılar. Onların sevincdən qığılcım saçan gözlərinə aludə olmuşdum. Biz elə qaynayıb qarışdıq ki, sanki aramızda dil səddi yox idi. Bir yerdə oynayırdıq, rəqs edirdik. Hər kəs də öz dilində oxuyurdu. Mənimlə oynayan balaca qızların hər biri diqqətimi özünə çəkmək istəyirdi, məni danışdırırdı, saçlarımı balaca əlləri ilə götürüb hörürdülər, mənimlə elə danşırdılar ki, guya onların qəribə dilini anlaya bilirəm. Bu, ünsiyyətin ən sehrli dəqiqələri idi, çünkü biz ürəklərimizin dili ilə danışırdıq və bir-birimizi də yaxşı başa düşürdük.

Uca dağlardan aşağı enib qədim və günəşli Qubaya döndük. Mən sanki bir dəfədə bir neçə fərqli səyahət edir, göz qırpımında bir mühitdən digərinə adlayırdım.

Azərbaycanın harasına ayaq basdımsa, Azərbaycan və rus dillərində danışa bilməsəm də, insanlarla həmişə ümumi dil tapırdım. Ərim mənə deyilən hər kəlməni tərcümə edirdi, lakin bəzən elə məqam yaranırdı ki, ikimiz də buna ehtiyac olmadığını anlayırdıq. Qara saçlarım məni azərbaycanlıya çevirdi və dəfələrlə yerli sakinlər mənə öz dillərində müraciət edirdilər və həm də tam əmin idilər ki, onları başa düşürəm.

Beləcə, mənimlə azərbaycanlılar azərbaycanca, ləzgilər ləzgicə danışır, talışlar özlərininki bilir, Quba yəhudiləri də "bizimkisən" deyirlər.

Lənkəran səfərində isə baramaqurdunu ovcuma almağım heç vaxt yadımdan çıxmayacaq. İndi də bəzən bu zərif, yumşaq məxluqları ovcumda hiss edirəm. Kümçülər baramaqurdunu yetişdirdikləri binanın içərisindəki taxta rəflərdə bu incə varlıqlara körpə uşaqlara baxan kimi qulluq edirdilər. Əllərinə alıb ana məhəbbəti və qayğıkeşliklə oxşayırdılar.

Dünyanın belə mürəkkəb və çətin günlərində Azərbaycana mənə bəxş edilən bütün xatirələrə görə dərindən minnətdarlığımı bildirirəm.

Bakıya gəlişimdən artıq iki il keçib və hər il ümid edirəm ki, tezliklə Bakıya qayıda biləcəyəm. Mən həddən artıq oxşar ölkələrimizi bir-birinə bağlayan sıx tellərə çevrilmək istərdim. Burada hər şey heyrətamiz dərəcədə İtaliyanın cənub-şərqində yeləşən Apuliya regionuna bənzəyir. Orada da Azərbaycandakı kimi isti, dəniz, külək, yeməklər və insanlar araşında bənzərliklər mövcuddur. Bir sözlə desək, Mediterraneo - Aralıq dənizi.

Mən istərdim ki, bir də Azərbaycana qayıtmaq imkanım olsun, bir daha təkrar özümü evimdəki kimi hiss edim və İtaliya ilə Azərbaycan arasında yeni bənzərliklərin axtarışına çıxım.

*Fotolar Aleksey Pivovarovundur, "Baku" jurnalı, may, 2021-ci il*

**(Mövzunun davamı var)**





# 28 illik həsrət sona çatdı - kəlbəcərlilər doğma yurdlarında

Kəlbəcər sakinlərinin bir qrupu rayonlarının azad olunmasından sonra ilk dəfə doğma yurdlarına səfər ediblər.

AZƏRTAC xəbər verir ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzə Dövlət Komitəsinin təşkilatçılığı ilə reallaşan səfərdə yaşlı nəslin nümayəndələri, Başlıbel faciəsində şəhid olanların yaxınları, şəhər ziyalıları iştirak ediblər.

İyirmi səkkiz illik ayrılıqdan sonra doğma yurdlarına səfər edən kəlbəcərlilər Kəlbəcər tuneli qarşısında öldürülən azərbaycanlıların xatirəsini yad edib, əraziyə güllər düzüb, onların qisasının yerdə qalmadığını bildiriblər.

Xatırladaq ki, 1993-cü ilin əvvəlində Ermənistan hərbi qüvvələrini Kəlbəcər üzərinə cəmləmişdi. Həmin dövrdə özünümüdafiə batalyonu Kəlbəcər tunelini qoruyurdu. Bu tunelin dinc sakinlərin ehtiyac olacağı təqdirdə rayondan çıxa bilməsi üçün strateji əhəmiyyəti vardı. Lakin təlim görməmiş, komandirləri olmayan, silahdan istifadə etməyi bacarmayan özünümüdafiə bölükləri mühasirəyə düşərək xeyli itki verdilər. Bundan sonra müdafiəni yarmış ermənilərin saxlanılması və Zülfüqarlı yaşayış məntəqəsindəki vacib yol bağlantısının ələ keçirilməsinin qarşısının alınması üçün Ömər-Tunel-Zülfüqarlı-Laçın marşrutunu ermənilərdən "təmizləmək" tapşırığı verilmişdi. Budəfəki cəhd də uğursuz oldu və neçə-neçə hərbçimiz, eləcə də Laçın və Kəlbəcəri tərk edən onlarla dinc sakin tunel sahəsində öldürüldü. Artıq Kəlbəcərdə hakim yüksəkliklər və tunel ermənilər tərəfindən tutulmuşdu. Hər ötən gün düşmən daha da irəliləyir və yeni mövqelər ələ keçirirdi. Qamışlı körpüsünə aparan Kəlbəcər-Zod-Ömər-Ağdərə yol bağlantısı və yol sahəsinin əldə saxlamaq cəhdi də uğursuzluqla nəticələndi. Bir neçə gündən sonra - 1993-cü il aprelin 2-də Kəlbəcər düşmən tərəfindən ələ keçirildi, Azərbaycan çoxsaylı şəhidlər verdi.

Ötən illər ərzində Azərbaycanda nizami silahlı qüvvələr formalaşdırıldı, ordu quruculuğuna xüsusi önəm verildi. Azərbaycan Ordusu müasir silahlarla təchiz edildi, şəxsi heyətin peşəkarlığı artırıldı. Artıq torpaqlarımızın azad edilməsi zamanı gəlmişdi və 2020-ci ilin sentyabrında başlayan, 44 gün davam edən Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qəhrəman oğlanları düşməni darmadağın edərək bütün şəhidlərimizin qisasını aldılar, torpaqlarımızı azad etdilər. Noyabrın 10-da məcbur olub kapitulyasiya aktına imza atan Ermənistan imzalanmış üçtərəfli Bəyanata əsasən noyabrın 25-də Kəlbəcər rayonunu işğaldan azad etdi, Azərbaycan Respublikasının Silahlı Qüvvələri rayona daxil olaraq nəzarəti ələ aldı.

Kəlbəcərə səfər edən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sənan Hüseynov AZƏRTAC-a "Tunel faciəsi" adını alan bu qırğın haqqında danışarkən deyib: "Kəlbəcərdə vəziyyət pisləşdiyi üçün 1993-cü il martın 31-də qadınları, uşaqları çıxarmaq qərarı verilmişdi. Buna görə də Kəlbəcərdən Laçına gedən tuneldən 30 kəndin sakinləri çıxarılmalı idi. Ermənilər Göyçə və Laçın istiqamətindən rayonu mühasirəyə almışdı. Həmin günlərdə yük maşını ilə 25 nəfərin, qadın, uşaq və qocaların çıxarılması planlaşdırılmışdı. Ermənilər tunelin çıxışında həmin insanları gülləborana tutdular. Çoxu öldü, ölməyənləri isə girov götürdülər. Ondan sonra da burada bu cür dəhşətli faciələr yaşandı. Dinc əhalini tunelin ağzında qırırdılar. Təsəvvür edin ki, insanları daşıyan "KamAZ" markalı avtomobilə od vurub, 8 yaşlı uşağı ailəsinin gözləri qarşısında onun içinə atdılar. Laçından gələnlər də burada qətlə yetirilib. Bu qırğınlardan sonra düşməndən qaçmağı bacaran bir nəfər geriyə qayıdaraq əhaliyə tunelin ağzında ermənilərin olduğunu xəbər verib və bundan sonra dinc insanlar qaçmaq üçün dağ yolundan istifadə ediblər".

Şöbə müdiri bildirib ki, kəlbəcərlilər Müzəffər Ali Baş Komandan İlham Əliyevə, şanlı Azərbaycan Ordusuna, qəhrəman övladlarımıza hər zaman minnətdardırlar. "Biz hər birimiz Prezidentimizə dərin təşəkkürümüzü bildiririk. Torpaqlarımız uzun illərdən sonra yağı düşməndən azad edildi, şəhidlərimizin qisası alındı. Bu gün biz çox qarışıq hisslər keçiririk, amma sevinc hissi onların hamısını üstələyir", - deyə Sənan Hüseynov əlavə edib.











Rayon sakinləri sonra Zülfüqarlı kəndinə gəlib, Milli Qəhrəman Şahlar Şükürovun qəbrini ziyarət ediblər. Səfər iştirakçıları, o cümlədən şəhidin ailə üzvləri Şahlar Şükürovun məzarı üzərinə güllər düzüblər.

Daha sonra Başlıbel kəndinə səfər olub. Ermənilərin xalqımıza qarşı vəhşiliklərindən biri də 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı zamanı Başlıbel kəndində törədilib. Başlıbel Kəlbəcər rayonunun ən qədim və böyük kəndlərindən biridir. 7659 hektar ərazisi olan kənd iki dağ çayının qovuşduğu yerdə, Dəlidağın ətəyində yerləşir. Kəndin ərazisində 1993-cü ilədək yaşayan yerli sakinlər isə Azərbaycan türkləri olub. Başlıbel kəndinin 1800-ə yaxın əhalisi var idi.

Başlıbel faciəsinin şahidləri bildiriblər ki, işğal zamanı doğma torpaqlarını tərk etməyən 62 nəfər dağlara sığınmışdı. Lakin həmin şəxslər cəmi 17 gün gizlində qala bildilər. 1993-cü il aprelin 18-də erməni quldurları qadın, uşaq və yaşlıların gizləndiyi yeri aşkarlayıb. Bu insanlar cəmi 2 ov tüfəngi və əhalini qoruyan əsgərlərdə olan bir neçə avtomat silahla düşmənə müqavimət göstəriblər. Başlıbelin işğalı zamanı erməni quldurları tərəfindən 27 nəfər güllələnib. Ermənilər Başlıbel kəndini işğal edərkən İkinci Dünya müharibəsi iştirakçısı olan Hüseyn Hüseynovu diri-diri yandırıblar. Kənd sakini, ruhi xəstəlikdən əziyyət çəkən Qənaət Ağayevi işgəncə ilə qətlə yetiriblər. 19 nəfər kənd sakini (qadın, uşaq və qoca) isə Ermənistan hərbçiləri tərəfindən girov götürülüb. Düşmən gülləsindən canını qurtara bilən 30 nəfər isə yenidən dağlara çəkilib və daha 113 gün mühasirə həyatı yaşayıb. Sağ qalan həmin şəxslər dəfələrlə ölümlə üz-üzə gəlib və günlərlə ac-susuz qalıblar. Mühasirədən çıxaraq dörd gün piyada yol qət edən 29 nəfər 1993-cü il iyulun 22-də Daşkəsən ərazisinə keçə biliblər. Amma Birinci və İkinci Dünya müharibələrinin iştirakçısı Ələsgər Ələsgərov doğma torpağını tərk etməyərək Başlıbeldə qalıb. Ələsgər Ələsgərov bu günədək itkin sayılır və onun barəsində hər hansı məlumat yoxdur.

Səfər iştirakçıları daha sonra Günəşli kəndində olublar.

Kəlbəcərlilər doğma rayonlarının yağı düşməndən azad olunmasına, şəhidlərimizin qisasının alınmasına görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə, igid Vətən övladlarına dərin təşəkkürlərini ifadə ediblər. Rayon sakinləri əmin olduqlarını bildiriblər ki, azad olunmuş torpaqlarımızda, o cümlədən Kəlbəcərdə aparılan tikinti-quruculuq işləri tezliklə başa çatacaq və onlar öz yurd-yuvalarına geri qayıdıb, firavan həyatlarını yaşayacaqlar.

# Biz birlikdə güclüyük!

## *Rəşad Mahmudov tibb işçilərinə çağırış edib:* "Doğru tibbi taktika qurmaqla vətəndaşların tərəddüd və qorxularını azalda bilərik"

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov tibb işçilərinə çağırış edib.



AZƏRTAC xəbər verir ki, parlament üzvü həkimləri vətəndaşlara yeni növ koronavirus pandemiyası ilə əlaqədar müəyyən izahlar verməklə əhali arasındakı tərəddüd və qorxuları azaltmağa çağırıb.

"Bir ilə yaxındır ki, evdə müalicə, nə vaxt xəstəxanaya getməliyik və s. mövzularda fikirlərimlə razılaşmadığınız məqam və ya buna qarşı əks fikir yürüdəcək həkim və ya tibbi ekspert varsa, məmnuniyyətlə açıq müzakirələrə girməyə hazıram. Təki cəmiyyətimizin bu gün bilmədən etdiyi yanlışlıqları az da olsa, düzəldə bilək. Səhiyyəmiz çox çətin bir sınaqdan keçir. Xüsusən evlərdə ilk günlərdən deksametazon, metipred, prednol-L, antibiotiklər, sistemlər yazan infeksionist, terapevt və pulmunoloqlara səslənirəm: Bəlkə bilmədiyimiz və ya gözdən qaçan məqam var? Siz izah edin, xahiş edirəm. İxtisasım ürək və damar cərrahı olsa da, ölkədəki ən böyük və ən səmərəli iş ortaya qoymuş reanimasiyaların qurucusu kimi, 2005-ci ildə dövlət xəstəxanasında rəsmi "İnfeksiya Nəzarət Komitəsini" quran biri kimi, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizədə il yarımdır ki, ən sadədən EKMO-ya qədər bütün müalicələri uğurla tətbiq edən Mərkəzi Gömrük Hospitalının əməkdaşı kimi, bir tibb alimi və bir millət vəkili kimi sizə müraciət edirəm: Belə bir vəziyyətdə həkim olaraq, heç birimizin susqun oturmağa haqqımız yoxdur. Bu qədər yüklənmə qarşısında dövlət qurumlarından bu məsələdə nəsə etməsini gözləmək yanlışdır. İnsanları vaxtında səhv yoldan döndərməsək, ölümlər daha da artacaq. Buna adım kimi əminəm. İnsanları evlərdə ilk gündən sistem və güclü dərman istifadəsinə inandıran siz, biz, bəlkə də hamımız olmuşuq. Bu səhvi düzəltmək də hamımızın işidir.

Halbuki, doğru tibbi taktika qurmaqla, ən azından vətəndaşlara belə vəziyyətlərdə nə etməmələri mövzusunda izah verməklə tərəddüd və qorxuları azalda bilərik. Nəticədə dövlətin COVID-19 mübarizəsində ortaya qoyduğu səylərə və əməyə həm də əməldə dəstək olmuş olarıq.

Əlbəttə ki, bu dalğa da digərləri kimi 2-3 həftəyə sönməyə başlayacaq və sönəcək, lakin ən çətin günlərdə bir səhiyyə işçisi olaraq bütün çətinliklərə baxmayaraq, hadisəyə münasibətimiz hər zaman xatırlanacaq", - deyə R.Mahmudov qeyd edib.

## Azərbaycan və Türkiyə alimləri COVID-19 və xərçəng xəstəlikləri ilə mübarizədə mühüm nəticələr əldə ediblər

Son zamanlar virus və xərçəng xəstəliklərinə qarşı mübarizədə antivirus və antixərçəng peptidləri üzrə geniş tədqiqatlar aparılır. Bioaktiv peptidlər insan orqanizminə toksik təsir etməməklə yanaşı, virus və xərçəng əleyhinə çox effektiv xüsusiyyətlərə malikdir.



Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) arasında imzalanmış əməkdaşlıq sazişi üzrə müştərək proqram çərçivəsində aparılan birgə tədqiqatlar nəticəsində düyü kəpəyi zülalının hidrolizi əsasında əldə edilən kationik EQRPR peptidin xərçəng xəstəliyinə və COVID-19 infeksiyasına qarşı mübarizədə tətbiq oluna bilməsi və onların təsir mexanizmləri tədqiq edilib.

AMEA-dan AZƏRTAC-a bildirilib ki, tədqiqat işlərinə Azərbaycan tərəfindən Milli Onkologiya Mərkəzinin direktoru akademik Cəmil Əliyev, AMEA-nın müxbir üzvü Biofizika İnstitutunun direktoru Oktay Qasımov, Bakı Dövlət Universitetinin professoru Niftalı Qocayev, Türkiyə tərəfindən isə professor Sevim Akuyuz rəhbərlik edir.

Aparılan kompleks tədqiqatlarda həm nəzəri (molekulyar dokinq, molekulyar mexanika), həm də eksperimental (Furye Çevirici İnfraqırmızı Spektroskopiya, Raman spektroskopiyası, Dairəvi dixroizm və Elektron Paramaqnit Rezonansı Spektroskopiyası) metodlardan geniş istifadə olunub. Bundan başqa, EQRPR peptidinin həm nöqtəvi D-izomer dəyişmələri, həm də tam D-izomer peptidləri sintez edilib və onların dərman xüsusiyyətlərinin dəyişməsi tədqiq edilib.

Qeyd edək ki, iki ölkənin alimləri tərəfindən ilk dəfə molekulyar dokinq metodunu tətbiq etməklə peptid və onların D-izomer analoqlarının ACE2, SARS-CoV-2 virusunun S- və Mpro zülalları ilə birləşmə kompleksləri göstərilib, həmçinin komplekslərin birləşmə konstantları hesablanaraq mümkün kliniki profilləri təyin edilib. Tədqiq olunan EQRPR peptidinin multifunksional olması göstərilib.

Mütəxəssislərin bildirdiyinə görə, peptid bir sıra mühüm inteqrinlərlə birləşə bilir. Bu da həm SARS-CoV-2 virusu infeksiyasından, həm də xərçəng xəstəliklərinə qarşı mübarizədə geniş istifadə oluna bilər.

Mühüm nəticələrdən biri də multifunksional peptidin müxtəlif zülallarla birləşmə xüsusiyyətinin müxtəlif nöqtələrində D-izomer dəyişməsi aparmaqla modulyasiya edilə bilməsidir. EQRPR peptidinin ikincili quruluşu müxtəlif spektroskopik metodlarla, fəza quruluşu isə nəzəri əsaslarla hesablanıb. Eksperimental və nəzəri işlərdən alınan nəticələrin birbiri ilə uğurlu şəkildə uzlaşması təqdirəlayiqdir.

Ağciyər xərçəngi hüceyrələrində aparılan ilkin tədqiqatlarda EQRPR peptidinin hüceyrə membranı ilə qarşılıqlı təsirdə olduğu göstərilib. Layihə üzrə alınan mühüm nəticələr yüksək impakt faktorlu "Molecular Graphics and Modelling" beynəlxalq jurnalında çap olunan məqalədə (Evaluation of anti-cancer and anti-COVID-19 properties of cationic pentapeptide Glu-Gln-Arg-Pro-Arg, from rice bran protein and its d-isomer analogs through molecular docking) öz əksini tapıb.

Qeyd olunub ki, mühüm kliniki və fundamental əhəmiyyətə malik olan tədqiqat işləri davam etdirilir.

## *DİN:* "Sentyabrın 2-də 11 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkarlanaraq saxlanılıb"

Sentyabrın 2-də daxili işlər orqanlarının əməkdaşları tərəfindən respublika ərazisində 11 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkarlanaraq saxlanılıb.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, polis əməkdaşları onlarla izahedici söhbətlər aparıb, tibbi prosedurları gözləməklə həmin şəxsləri yaşadıqları evə qaytarıblar. Bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə 2 nəfər barəsində cinayət işi başlanıb, istintaq araşdırmaları davam etdirilir.

* * *

Paytaxtın Qaradağ rayonunun Sahil qəsəbəsində aktiv koronavirus xəstəsi ictimai yerdə aşkarlanaraq saxlanılıb.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Qaradağ Rayon Polis İdarəsinin əməkdaşları qəsəbə sakini, virusun daşıyıcısı kimi qeydiyyatda olan Ramal Feyzullayevin markete getdiyini müəyyənləşdiriblər. Həmin şəxs dəfələrlə edilən xəbərdarlıqlara məhəl qoymadığı üçün barəsində Qaradağ Rayon Polis İdarəsinin istintaq şöbəsində Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb.

Məhkəmə tərəfindən Ramal Feyzullayev haqqında həbs qətimkan tədbiri seçilib, araşdırmalar davam etdirilir.

* * *

Koronavirus infeksiyasının kütləvi yayılmasının qarşısının alınması məqsədilə elan olunan xüsusi karantin rejimi qaydaları çərçivəsində Ağdaşda polis əməkdaşları tərəfindən nəzarət-profilaktik tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, qapalı məkanlarda keçirilən tədbirlər zamanı sosial məsafənin gözlənilməsi, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən düzgün istifadənin zəruriliyi barədə vətəndaşlara tövsiyələr verilib.

Həmçinin sahibkarlarla profilaktik söhbətlər aparılıb, pandemiya dövrünün tələblərinə məsuliyyətli yanaşmalarının vacibliyi onların diqqətinə çatdırılıb.

Yoxlamalar zamanı ümumilikdə bir neçə mağazada tibbi maskadan istifadə etməyən alıcı və satıcılara rast gəlinib ki, onların da barəsində intizam tənbeh tədbiri görülüb.

## Şəmkirdə sanitar-karantin qaydalarını pozan 56 nəfər şəxs məsuliyyətə cəlb edilib

COVID-19 infeksiyasının geniş yayılmasının, onun törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə elan edilən xüsusi karantin rejimi qaydaları çərçivəsində Şəmkir Rayon Polis Şöbəsinin əməkdaşları rayon ərazisində nəzarət-profilaktik tədbirləri davam etdirir.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Gəncə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, polis əməkdaşları rayon ərazisində fəaliyyət göstərən mehmanxanalarda monitorinqlər apararaq karantin rejiminin tələblərinin yerinə yetirilməsinə nəzarət ediblər. Mehmanxana müştərilərinin müvafiq COVID-19 pasportlarını yoxlayan polis əməkdaşları obyekt sahibləri ilə izahedici-profilaktiki söhbətlər aparıb, koronavirus infeksiyasının fəsadlarını və mövcud sanitar-gigiyenik tələbləri izah ediblər.

Daha sonra monitorinq rayondakı digər iaşə obyektlərində də davam etdirilib. Araşdırmalar zamanı ümumilikdə 8 obyektdə 17 nəfərin müvafiq pasport olmadan qapalı məkanlara daxil olması aşkar edilib. Polis əməkdaşları həmin şəxslərə karantin qaydalarını xatırladıb və barələrində qanunamüvafiq tədbir görüb.

Bundan başqa, market və digər ticarət obyektlərində, eləcə də əhalinin sıx olduğu digər yerlərdə nəzarət-profilaktiki tədbirlər keçirilib. Tədbirlərdə tənəffüs yollarını qoruyan fərdi qoruyucu vasitələrdən, yəni tibbi maskalardan istifadə etməyən və əsassız bəhanələr gətirən şəxslərə koronavirus infeksiyasının fəsadları və mövcud sanitar-gigiyenik tələblər izah olunub. Rayon sakinlərinin diqqətinə çatdırılıb ki, hər bir şəxs sosial məsuliyyət çərçivəsində tətbiq edilən qaydalara qeyd-şərtsiz əməl etməli, mövcud qaydaları anlayışla qarşılamalıdır, özünün və digər şəxslərin həyat və sağlamlıqlarına etinasız yanaşmamalıdır.

## Ölkəmizdə koronavirus əleyhinə vurulan peyvəndlərin ümumi sayı 7 milyonu ötüb

*Əvvəli 1-ci səh.*

### Dünyada koronavirusla bağlı vəziyyət mürəkkəb olaraq qalır

Qlobal virus dünyada hər gün neçə-neçə insanın sağlamlığını əlindən alır. Minlərlə koronavirus xəstəsi isə həyatını itirir. Artıq dünya üzrə bu təhlükəli infeksiyaya yoluxanların sayı 220 milyon nəfəri ötüb. Bu barədə pandemiyanın online statistikasını aparan Worldometer saytı məlumat verib. Koronavirus səbəbindən ölənlərin sayı 4 milyon 560 min nəfərdən, sağalanların sayı isə 196 milyon 798 min nəfərdən çoxdur.

COVID-19 infeksiyasına yoluxanların sayına görə dünyada birinci yeri ABŞ tutur. Həmin ölkədə yoluxma hallarının sayı 40 milyon 513 min nəfəri, həyatını itirənlərin sayı 662,8 min nəfəri keçib, 31 milyon 200 minə yaxın xəstə isə sağalıb.

ABŞ-dan sonrakı sıralarda yoluxma göstəricisinə görə Hindistan və Braziliya dayanır. Hindistanda 32 milyon 903 mindən çox insanda koronavirus infeksiyası aşkarlanıb, 439 min 916 nəfər vəfat edib, 32 milyon 63 mindən çox xəstə sağalıb. Braziliyada isə indiyədək 20 milyon 830 min nəfərdə COVID-19 xəstəliyi təsdiqlənib, onlardan 582 mini vəfat edib, sağalanların sayı 19 milyon 802 min nəfərdir.

Sərhəd qonşularımız arasında da COVID-19-la bağlı vəziyyət mürəkkəb olaraq qalır. Qonşu Rusiya bütün dünyada koronavirusa yoluxma sayına görə ABŞ, Hindistan və Braziliyadan sonra dördüncü yeri tutur. Bu ölkədə hər gün yüzlərlə insan COVID-19-un qurbanı olur. Digər sərhəd qonşularımız arasında koronavirus səbəbindən ən çox ölüm hallarının qeydə alındığı digər ölkələr isə İran və Türkiyədir. Qonşu Gürcüstanda da bu təhlükəli virusla bağlı vəziyyət ağırdır. Belə ki, həmin ölkədə ötən sutka ərzində 86 nəfər COVID-19-dan dünyasını dəyişib. "Sputnik Gürcüstan"ın verdiyi məlumatda o da bildirilib ki, bu, koronavirus pandemiyası başlayandan Gürcüstanda ölümlə bağlı qeydə alınan ən yüksək göstəricidir.



### Araşdırmalarda yeni nəticə

Dünyanı koronavirusun cənginindən xilas etməyə çalışan mütəxəssislərin araşdırmaları davam edir. Belə bir vaxtda Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) arasında imzalanmış Əməkdaşlıq Sazişi üzrə Müştərək Proqram çərçivəsində aparılan birgə tədqiqatlar nəticəsində düyü kəpəyi zülalının hidrolizi əsasında əldə edilən kationik EQRPR peptidin xərçəng xəstəliyinə və COVID-19 infeksiyasına qarşı mübarizədə tətbiq oluna bilməsi, onların təsir mexanizmlərinin tədqiq edilməsi barədə məlumat yayılıb. AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsindən verilən məlumata əsasən, Azərbaycan tərəfindən Milli Onkologiya Mərkəzinin direktoru, akademik Cəmil Əliyev, AMEA-nın Biofizika İnstitutunun direktoru Oktay Qasımov, Bakı Dövlət Universitetinin professoru Niftalı Qocayev, Türkiyə tərəfindən isə professor Sevim Akuyuz tədqiqat işlərinə rəhbərlik edirlər.

Kompleks tədqiqatlarda həm nəzəri (molekulyar dokinq, molekulyar mexanika), həm də eksperimental (Furye Çevirici İnfraqırmızı Spektroskopiya, Raman spektroskopiyası, Dairəvi dixroizm və Elektron Paramaqnit Rezonansı Spektroskopiyası) metodlardan geniş istifadə edilib. Həmçinin EQRPR peptidinin həm nöqtəvi D-izomer dəyişmələri, həm də tam D-izomer peptidləri sintez edilib, onların dərman xüsusiyyətlərinin dəyişməsi tədqiq olunub.

Məlumata görə, iki ölkənin alimləri tərəfindən ilk dəfə molekulyar dokinq metodunu tətbiq etməklə peptid və onların D-izomer analoqlarının ACE2, SARS-CoV-2 virusunun S- və Mpro zülalları ilə birləşmə kompleksləri göstərilib, həmçinin komplekslərin birləşmə konstantları hesablanaraq mümkün kliniki profilləri təyin olunub. Tədqiq edilən EQRPR peptidinin multifunksional olması göstərilib.

Mütəxəssislərin fikrincə, peptid bir sıra mühüm inteqrinlərlə birləşə bilir. Bu da həm SARS-CoV-2 virusu infeksiyasına, həm də xərçəng xəstəliyinə qarşı mübarizədə geniş istifadə oluna bilər.

Əldə olunan mühüm nəticələrdən biri də multifunksional peptidin müxtəlif zülallarla birləşmə xüsusiyyətinin müxtəlif nöqtələrində D-izomer dəyişməsi aparmaqla modulyasiya edilə bilməsidir. EQRPR peptidinin ikincili quruluşu müxtəlif spektroskopik metodlarla, fəza quruluşu isə nəzəri əsaslarla hesablanıb. Eksperimental və nəzəri işlərdən alınan nəticələrin bir-biri ilə uğurlu şəkildə uzlaşması təqdirəlayiq hesab edilir.

Ağciyər xərçəngi hüceyrələrində aparılan ilkin tədqiqatlarda EQRPR peptidinin hüceyrə membranı ilə qarşılıqlı təsirdə olduğu göstərilib. Layihə üzrə alınan mühüm nəticələr yüksək impakt faktorlu "Journal of Molecular Graphics and Modelling" beynəlxalq jurnalında çap olunan məqalədə (Evaluation of anti-cancer and anti-covid-19 properties of cationic pentapeptide Glu-Gln-Arg-Pro-Arg, from rice bran protein and its d-isomer analogs through molecular docking) öz əksini tapıb.

Qeyd edək ki, mühüm kliniki və fundamental əhəmiyyətə malik olan tədqiqat işləri davam etdirilir.

### Vaksinasiya prosesinin əhəmiyyəti dünyanın diqqətindədir

Qlobal bəlanın qarşısını almaq üçün hazırda əksər ölkələrdə koronavirusa qarşı vaksinasiya prosesi davam etdirilir. Ölkəmizdə yanvarın 18-dən tibb işçilərinin koronavirusa qarşı peyvəndlənməsinə başlanılıb. Bütün dünyada mütəxəssislər vaksinasiya prosesinin əhəmiyyətini qeyd etdikləri bir vaxtda ölkəmizdə bu istiqamətdə ardıcıl işlər aparılır.

Onu da bildirək ki, sentyabrın 3-də Azərbaycanda 85 min 760 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 48 min 116, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 37 min 644 nəfər təşkil edib.

Azərbaycanda dünənə qədər vurulan vaksinlərin ümumi sayı 7 milyon 95 min 693, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 287 min 967, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 2 milyon 807 min 726 nəfər təşkil edir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

## Koronavirusa 3762 nəfər yoluxub

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 3762 yoluxma faktı qeydə alınıb, 3812 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 38 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 436 min 257 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 377 min 287 nəfər müalicə olunaraq sağalıb, 5 min 760 nəfər vəfat edib. Aktiv xəstə sayı 53 min 210 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 19 min 17, dünənə qədər isə ümumilikdə 4 milyon 517 min 734 test icra olunub.




## *Musa QƏNİYEV:* "Vaksinasiyadan sonra yaranan reaksiyalar peyvəndin yan təsirləri deyil"

"Bu gün dünyada yeni növ koronavirus (COVID-19) əleyhinə istifadə olunan peyvəndlər ya inaktiv, ya da vektorlu peyvəndlər qrupuna aiddir. Bu peyvəndlərdən heç biri, enzim patologiyası olan bir qrup şəxs istisna olunmaqla, digərlərində fəsad və xüsusi müdaxilə tələb edən mənfi təsirə səbəb ola bilməz. Nəzərə almaq lazımdır ki, kəskin allergik xəstələrdə təkcə COVID-19 əleyhinə vaksin deyil, istənilən peyvənd və ya dərman preparatları atipik reaksiyalar törədə bilər".

AZƏRTAC xəbər verir ki, bu fikirləri tibb elmləri doktoru, professor Musa Qəniyev deyib.

Professor bildirib ki, peyvəndin inyeksiya yerində ağrının olması, hətta bir neçə gün davam etməsi, qızdırma, üşütmə, halsızlıq, ishal, habelə baş və əzələ ağrıları isə vaksinin yan təsirləri deyil, formalaşan immunitetin zəruri reaksiyalarıdır: "Yəni, orqanizmdə immunitetin yaranmasının təsdiqidir. Həmin əlamətlər qısa müddətdən sonra azalaraq tamamilə aradan qalxır. Koronavirus əleyhinə vaksinasiyadan sonra müşahidə olunan belə reaksiyalar peyvəndin fəsadı kimi qiymətləndirilməməlidir. Ümumiyyətlə COVID-19-dan qorunmanın ən sadə yolu adi gigiyenik tələblərə riayət və normal ünsiyyət formalarına əməl etməkdir".

Koronavirusun növbəti dalğaları barədə də danışan



M.Qəniyev qeyd edib: "Gündəmdə olan koronavirus infeksiyasının yaratdığı fəsadlar danılmazdır. Lakin növbəti dalğaların olacağı, daha qorxulu mutantların əmələ gələcəyi, anticisimlərin azalması peyvəndlərin çox ciddi fəsadlara səbəb olacağı deyimi qədər əsassızdır. Məqsəd və məramı məlum olmayan belə fikirlər insanların beyninə yeridilərək onlarda kütlə psixologiyası formalaşdırılır. Senzura nəzarətinin olmaması fərqli, ziddiyyətli, xüsusən ciddi fəsadlara yol açan qeyri-mütəxəssis münasibətlərinin yayılmasına səbəb olur. Bu hal sağlamlığa COVID-19-dan daha çox ziyan vurur. İstənilən kəskin viral infeksiyanın 2-ci, 3-cü və s. növbələşən dalğalarının başvermə ehtimalı o halda əsaslıdır ki, infeksiyanın alovlanaraq kəskin artımı müəyyən fasilədən sonra tam sönərək sıfırlanır və məxsusi gizli dövründən sonra (əsasən, 21+1 gün) təkrar alovlanır. COVID-19-un müəyyən qədər azalaraq təkrar artması II, III, IV və s. dalğa kimi dəyərləndirilə bilməz".

## Dünən Azərbaycanda COVID-19 əleyhinə 86 min dozaya yaxın peyvənd vurulub

Sentyabrın 3-də Azərbaycanda 85 min 760 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 48 min 116, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 37 min 644 nəfər təşkil edib.

Azərbaycanda dünənə qədər vurulan vaksinlərin ümumi sayı 7 milyon 95 min 693, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 287 min 967, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 2 milyon 807 min 726 nəfər təşkil edir.



# “Azercell” yenidən jurnalistlər üçün ingilis dili kursları elan edir

Fəaliyyəti ərzində KİV nümayəndələrinin inkişafına, onların peşəkar bacarıqlarının artırılmasına və beynəlxalq əlaqələrinin qurulmasına, həmçinin rəqəmsal ingilis dilli mənbələrdən sərbəst istifadəsinə yardımçı olmaq məqsədilə çoxsaylı layihələr həyata keçirən ölkənin lider mobil operatoru “Azercell Telekom” jurnalistlər üçün növbəti ingilis dili kurslarını təşkil edir.

Yay mövsümünün bitməsi ilə başlayacaq kurslar çap, elektron və teleradio kütləvi ınformasiya vasitələrində çalışan aktiv peşəkarlar üçün açıqdır. Kurslarda iştirak etmək üçün jurnalistikada ən azı bir il iş təcrübəsinə malik olan şəxslər KİV-də dərc olunan 3 məqaləsini və jurnalist vəsiqəsinin surətini




20.09.2021-ci il tarixinə qədər azercell.press@azmemo.info elektron ünvanı vasitəsilə şirkətə təqdim etməlidirlər. İxtisaslaşmış ingilis dili müəllimləri tərəfindən aparılacaq dərslərdə media nümayəndələrinə qrammatika, danışıq, dinləmə, yazı qabiliyyəti üzrə ingilis dili biliklərini gücləndirmək imkanı yaradılacaq.

Qeyd edək ki, “Azercell” 13 ildən artıq bir müddət ərzində jurnalistlər üçün dil kursları təşkil edir. İndiyədək yüzlərlə KİV nümayəndəsi ingilis dili üzrə ixtisaslaşmış kurslarda iştirak edib. Bundan əlavə, media sahəsində baş verən yenilik və trendlərlə yerli jurnalistləri tanış etmək, fərqli təcrübələrlə bölüşmək, beynəlxalq jurnalistika məktəbi ilə tanışlıq və təcrübə mübadiləsi məqsədilə şirkət tərəfindən mütəmadi olaraq xaricdən dəvət olunmuş tanınmış təlimçilərin maraqlı mövzularda seminar və təlimləri təşkil edilir.

## B İ L D İ R İ Ş

“Azərişıq” ASC tərəfindən 14 iyul 2021-ci il tarixdə “Kəlbəcər rayonu ərazisində dövlət sərhədinin mühafizəsi və müdafiəsinin təşkilinin dayanıqlı və etibarlı elektrik enerjisi ilə təmin olunması məqsədilə 110/35/6 kV-luq “Gəncə-2” və 110/35/6 kV-luq “Daşkəsən” yarımstansiyaları arasında 110 kV-luq iki dövrəli hava xəttinin çəkilməsi işlərinin” təkliflər sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə iştirak edən “Enerji Construction” MMC şirkəti qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərişıq” ASC tərəfindən 14 iyul 2021-ci il tarixdə “Kəlbəcər rayonu ərazisində dövlət sərhədinin mühafizəsi və müdafiəsinin təşkilinin dayanıqlı və etibarlı elektrik enerjisi ilə təmin olunması məqsədilə Daşkəsən rayonunun ərazisində yerləşən mövcud 110/35/6 kV-luq “Daşkəsən” yarımstansiyasının, 2x40 MVA gücündə yenidən qurulması işlərinin” təkliflər sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə iştirak edən “MSDİS HOLDİNG” MMC şirkəti qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***




## XVI Tokio Yay Paralimpiya Oyunları

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ PARALİMPİYA KOMİTƏSİ

# Üzgüçümüzün 3-cü, komandamızın 12-ci qızıl medalı

## Azərbaycan paralimpiyaçıları Tokioda idman tariximizə yeni səhifələr yazmaqda davam edirlər











Planetin ən güclü paralimpiyaçılarının yarışdığı “Tokio-2020”də gərgin idman mübarizəsinin yekunlaşmasına az qalır. Sevindirici haldır ki, paralimpiyaçılarımız bu möhtəşəm yarışları uğurla başa vurur.

Yarışların növbəti günündə komandamız medalsız qalmadı və növbəti qızılla Azərbaycan atletlərinin hesabındakı medal sayı 17-yə çatdı. Onlardan 12-i qızıl, 1-i gümüş, 4-ü isə bürüncdür. Xatırladaq ki, paracüdoçular Şəhanə Hacıyeva (48 kq), Sevda Vəliyeva (52 kq), Xanım Hüseynova (63 kq), Vüqar Şirinli (60 kq), Hüseyn Rəhimli (81 kq), Dürsədəf Kərimova (+70 kq) qızıl, Namiq Abaslı (66 kq) və İlham Zəkiyev (+100 kq) bürünc medala sahib olmuşlar. Nizəatma yarışında dünya rekordu müəyyənləşdirən para-atletimiz Həmid Heydəri isə qızıl medal sahibidir. Onun uğurunu Elvin Astanov nüvəatma yarışında təkrarlamışdır. Səid Nəcəfzadə uzunluğa tullanmada, Pərvin Məmmədov pauerliftinqdə fəxri kürsünün üçüncü pilləsinə qalxmışlar. Ölkəmizin hesabına gümüş medalı isə qadınların 100 metr məsafəyə qaçışında Lamiyə Vəliyeva yazdırıb.

Paralimpiadada üzgüçülərimizin çıxışlarını da xüsusi vurğulamaq lazımdır. Sonuncu yarış gününə kimi bu idman növündə Raman Saleh (iki dəfə) və Vəli İsrafilov Paralimpiya çempionu adını qazanmışdır.

Dünən isə Raman Saleh üzgüçülük yarışlarında özünün üçüncü mükafatını əldə etmişdir. Təmsilçimiz 100 metr məsafəni batterflyay üsulu ilə 57,81 saniyəyə üzərək birinci olmuşdur. Xatırladaq ki, bunadək R.Saleh brass və sərbəst üsulla 100 metr məsafəni üzməkdə iki dəfə paralimpiya çempionu adını qazanmışdır.

Təkrar

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Təhsil müəssisələrinin təmir-tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması üçün

### *açıq tender elan edir*

Elektron satınalmada iddiaçı qismində satınalma predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) **etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən iddiaçılar iştirak haqqının ödənişini həyata keçirdikdən sonra tenderin Əsas şərtlər toplusunu əldə edə və müsabiqə üçün müvafiq sənədləri təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı 100 (bir yüz) manatdır. İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün iştirak haqqını ödədikdən sonra Portal vasitəsilə tender üzrə tələb olunan ilkin sənədləri 09 sentyabr 2021-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini isə 20 sentyabr 2021-ci il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender təklifləri 21 sentyabr 2021-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar tenderin nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# Qanunsuz erməni silahlı dəstələrinin təxribatının qarşısı qətiyyətlə alınıb

Sentyabrın 3-ü saat 01:00-dan 02:15-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələri tərəfindən Şuşa istiqamətində yerləşən bölmələrimizdən birinin mövqeyi intensiv atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun hərbi qulluqçularının sayıqlığı və dərhal görülən tədbirlər nəticəsində qarşı tərəf itki verib və susdurulub. Hadisə ilə bağlı Rusiya sülhməramlılarının komandanlığı və Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi məlumatlandırılıb.

Bildiririk ki, bu qəbildən olan təxribata cəhd göstərildiyi hallarda tərəfimizdən Azərbaycan Respublikasının qanunları çərçivəsində adekvat tədbirlərin görülməsi bundan sonra da qəti şəkildə təmin olunacaq.



# İsmayıllıda yanğın hadisəsi baş verib

Bu gün axşam saatlarında İsmayıllı Rayon Keyvəndi bələdiyyəsinə məxsus örüş sahəsində baş verən yanğın sonradan meşəyə keçib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yerli qurumunun rəsmisi Akif Məmmədov AZƏRTAC-a bildirib ki, hazırda nazirliyin qüvvələri və Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin əməkdaşları səfərbər olunaraq yanğının söndürülməsi üçün çalışırlar.

# Ermənilərin Qarabağda növbəti fiaskosu

## Yaxud “dəlidən doğru...” qərar

*Əvvəli 1-ci səh.*

Onlar rəsmi Bakının qəzəbindən qorxurlar. Sentyabrın 2-də Robert Koçaryan və Serj Sarkisyan da “artsax”a gəlmədi. Halbuki ən azı onlar öz “doğma” yerlərini ziyarət edə bilərdilər. Lakin Koçaryanla Sarkisyanın da bunu etməyə cəsarəti çatmadı”.

Bəli, Qarabağda rus sülhməramlılarının arxasında gizlənən separatçıların “yubiley”inə Ermənistan hakimiyyətindən rəsmi şəkildə heç kəs qatılmadı, yalnız parlamentdə təmsil olunan fraksiyaların bir neçə deputatından savayı. Hər il təmtəraqlı mərasimlər, rəsmi nümayəndələrin səfərləri, çıxışları ilə keçən qondarma “artsax”ın “müstəqillik” günü bu il sadəcə bəyanatlarla “qeyd olundu”.

Səbəbini erməni siyasi ekspert Tevan Poqosyan belə açıqlayır: “İlk dəfə olaraq Ermənistan rəhbərliyi “müstəqillik günü” münasibətilə Qarabağa getmədi. Bunun səbəbini Ermənistan rəhbərliyinin qorxu və narahatlığında axtarmaq lazımdır. Necə deyərlər, iki qorxu - bir ölüm. Bəlkə də vəzifələrini itirməkdən, bəlkə də Azərbaycanın reaksiyasından qorxdular”.

Ermənistan parlamentinin deputatı, “Ermənistan” fraksiyasının üzvü Areqnaz Manukyan da bununla bağlı Paşinyan hakimiyyətini tənqid edib. Deputat qondarma rejimin yaradılmasının 30 illiyi ilə bağlı tədbirlərdə prezident Armen Sarkisyan, baş nazir Nikol Paşinyan və spiker Alen Simonyanın iştirak etməməsinin səbəbini belə izah edib: “Qarabağdakı “müstəqillik” tədbirinə Ermənistanın 3 ən yüksək vəzifəli şəxsi qatılmayıb. Bu misligörünməmiş hadisədir. Müharibədən sonra yalnız xarici işlər naziri Ara Ayvazyan Qarabağa getdi. Bundan sonra Azərbaycan belə halların təkrar olunacağı halda reaksiya verəcəyini bildirdi. Bu sözlərdən sonra Qarabağa səfərlər dayandırıldı”.

Jurnalistlər də Ermənistanın yüksəksəviyyəli dövlət nümayəndələrinin qondarma “artsax”ın yaradılmasının 30-cu ildönümü münasibətilə oranı ziyarət etmədiklərinin, Paşinyanın isə belə bir vaxtda məzuniyyətə getdiyinin səbəbini soruşublar. Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri Vaaqn Xaçatryan məsələni belə izah edib: “Deməli, belə lazımdır. Bunun üçün siyasi qərar qəbul edilib. Bu cür addım atmaq zəruridir. Başqa heç nə axtarmayın, hər şey yaxşıdır”. O, həmçinin bundan böyük bir problem düzəltməyə gərək olmadığını vurğulayıb: “Ermənistan hakimiyyəti bu günlə əlaqədar tədbirləri belə keçirmək qərarına gəldi. Heç bir problem yoxdur. Bundan böyük problem yaratmayın”.

Onu da bildirək ki, Qarabağda təxribat xarakterli “mərasim”ə qatılan Ermənistan parlamentində təmsil olunan fraksiyaların üzvlərinə də burada xoş münasibət sərgilənməyib. “Qraparak” qəzeti yazır ki, həmin deputatlar Xankəndidə hücuma məruz qalıblar. Belə ki, Xankəndi şəhərinə gələn deputatlar yerli sakinlər tərəfindən qəzəblə qarşılanıblar. Sakinlər İrəvandan gələn deputatları, onların təmsil etdikləri İrəvan hakimiyyətini övladlarının və ərlərinin qatilləri hesab etdiklərini bildiriblər. Hadisələr hətta o həddə çatıb ki, çağırılmamış qonaqları qəzəbli sakinlərin daş-qalağından qorumaq üçün polis çağırılıb.

Bax, belə bir vəziyyətdə irəvanlıların Xankəndiyə gəlməməsini qorxu-ürküdən savayı, həm də “dəlidən doğru...” qərar kimi də qəbul etmək olar.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazov və nazirliyin kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılova atası

**RAUF MİKAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizi

**FAMİL MİRİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılova atası

**RAUF MİKAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılova atası

**RAUF MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu və kollektivi iş yoldaşları, dosent Zeynəddin Şabanova qayınatası

**MƏMMƏDFATEH RAMAZAN OĞLU İSRAFİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərov və məhkəmənin kollektivi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin şöbə müdiri Mahir Yolçuyevə atası

**MALİK MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və “Azərenerji” ASC-nin kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılova atası

**RAUF MİKAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılova atası

**RAUF MİKAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılova atası

**RAUF MİKAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4955
Sifariş 1604
Qiyməti 40 qəpik